www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 avqust 2025-ci il Çərşənbə № 146 (8756) Qiymәti 60 qәpik

**Xəbər**

## Ölkəmizdə uşaq ölümləri ilə bağlı qorxunc statistika

yazısı səh.10-da

**Gündəm**

### Minsk Qrupunun ləğvi Finlandiyada olacaq



2025-ci ilin dekabrında keçiriləcək ATƏT üzvü dövlətlərin xarici işlər nazirlərinin görüşündə tarixi qərarın qəbulu gözlənilir

yazısı səh.6-da

### Paşinyan xalqa müraciətində referendumdan danışmadı - səbəblər

yazısı səh.4-də

### Kriptovalyutadan qazananlar vergi ödəyəcək

yazısı səh.3-də

### Sülh sazişinin yeri və zamanı - 24 aprel, İstanbul...

yazısı səh.6-da

### Evin tək oğlu süni göldə boğuldu

yazısı səh.3-də

### Dondurulan "907-ci düzəliş"də müəmma

yazısı səh.6-da

### Bakı və İrəvan "Putinin qrupu"ndan çıxa bilmir

yazısı səh.7-də

### Nikahdankənar doğulanlar artır

yazısı səh.10-da

### "Qazprom" Azərbaycanın qazanacağı layihədən imtina etdi

yazısı səh.12-də

### Tehranın yeni planı - Araz dəhlizi

yazısı səh.11-də

### İrəvan məscidləri - unudulmayan miras

yazısı səh.14-də

### Ölkədə rüşvətxorluğa qarşı yeni mübarizə

yazısı səh.15-də

### Ərəb turistlərin Bakıdakı qalmaqalları...

yazısı səh.13-də

# AZƏRBAYCAN ÇÖRƏK EHTİYATINI ARTIRIR - NƏYƏ HAZIRLIQ?

Rusiyadan asılılıq kəskin azalıb, əvəzində Qazaxıstandan idxal artıb; dövlət əkin sahələrinin azaldığını gördükdən sonra daha çox ehtiyat yaratmaq qərarına gəlib

yazısı səh.3-də




# Rusiya ağlını itirir - Bakıya qarşı artan düşmənçilik

Moskva böhranı nizamlamaq yerinə vəziyyəti daha da gərginləşdirən hərəkətlərə yol verməklə nə demək istəyir və gözləntisi nələrdir?

yazısı səh.9-da



### Trampa "Bakıya təzyiq et" tələbi

yazısı səh.5-də



### Şahin Mustafayev Moskvaya gedir?

yazısı səh.8-də



*Səməd Seyidov:*

### "Azərbaycana məxsus obyektlərin vurulması bununla bağlıdır"

yazısı səh.12-də



## İrəvan xristian yox, türk birliyini seçəcək - sensasion iddia

**“Ermənistan Avropa İttifaqına yox, Türk dünyasına daxil olacaq. Bunu erməni politoloq Benyamin Matevosyan deyib. "Baş verənlər söyləməyə əsas verir ki, regionda cərəyan edən hadisələrin məntiqi nəticəsi Ermənistanı Avropa İttifaqına yox, Türk dünyasına aparacaq. Zəngəzur dəhlizi bütün bunların baş verməli olduğu arteriya olmalıdır. Hətta belə deyək, ermənilərin gözü artıq Türk dünyasının bir parçası olduğumuza alışmalıdır. Məhz buna görə də bu dəhliz işləməlidir", - ekspert bildirib.**

Politoloq Məhəmməd Əsədullazadə “Yeni Müsavat”a bildirdi ki, erməni politoloq Benyamin Matevosyanın həmin fikirləri şübhəsiz səmimi deyil. Bu fikirlərdə Paşinyan hakimiyyətinin apardığı siyasətdən narazılıq notları sezilir: “Erməni ictimaiyyətinə bu şəkildə demək istəyib ki, bu gedişlə Paşinyan bizi türklərin nəzarəti altına aparır. Yəni burada istək deyil, narazılıq daha çox hiss edilir. Lakin əslində Ermənistan və ermənilər ağıllı hərəkət etsələr, düzgün yol tutsalar elə onlar üçün ən uğurlu variant, gələcəkləri üçün ən düzgün seçim məhz Türk dünyası, Türk Dövlətləri Təşkilatı ilə inteqrasiya olunmaları olardı. Ermənistan öncə türk dövlətlərinə - Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından rəsmi imtina etsin, sonra Azərbaycanla sülh müqaviləsi bağlasın, əlaqələr qursun, Zəngəzur dəhlizinin açılması üçün gərəkən işləri görsün. Bütün bunlar olarsa, onun Türk dünyası ilə bir yerdə fəaliyyətinin yolu bəlkə açılar”.

❑ **Etìbar SEYÌDAĞA,
“Yenì Müsavat”**

## Bakıda qadın sevgilisini bıçaqlayıb öldürdü



**Bakıda 46 yaşlı kişi qətlə yetirilib. Bakupost.az xəbər verir ki, avqustun 19-da saat 02 radələrində paytaxtın Xəzər rayonunun Şağan qəsəbəsində 1979-cu il təvəllüdlü Elşad Şıxıyevin yaşadığı evdə özünə kəsici alətlə xəsarət yetirməsi nəticəsində ölməsi barədə polisə məlumat daxil olub.**

Araşdırmalarla onun qeyri-rəsmi nikah münasibətlərində olduğu qadın tərəfindən qətlə yetirildiyi müəyyən edilib.

Polis əməkdaşları tərəfindən cinayət əməlini törətməkdə şübhəli bilinən 1987-ci il təvəllüdlü Aysel Rufullayeva saxlanılaraq istintaqa təhvil verilib.

## Pensiya və müavinətlərdə yeni artımlar ola bilər



**Bu ilin ilk 7 ayında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda proqnoza nisbətdə 280,8 milyon manat və ya 8,2% artım qeydə alınıb. Büdcə təşkilatları üzrə daxilolma 126,9 milyon manat və ya 11,2%, qeyri-büdcə təşkilatları üzrə isə 300,5 milyon manat və ya 14,0% artıb.**

Bu sözləri **millət vəkili, iqtisadçı alim Vüqar Bayramov** qeyd edib.

“2025-ci ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 7 milyard 617 milyon manat, xərclərinin isə 7 milyard 676 milyon manat olacağı gözlənilir. Eyni zamanda il ərzində məcburi dövlət sosial sığorta haqları üzrə 5 milyard 997 milyon manat yığım gözlənilir.

Məcburi dövlət sosial sığorta haqları üzrə yığımın proqnoza nisbətən daha çox olması həmin müddətdə ölkə üzrə orta aylıq əmək haqqının artması və əmək və eləcə də xidməti müqavilələrdə müşahidə edilən artımla bağlıdır. Belə ki, 2025-ci ilin ilk yarısında Azərbaycanda orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1097 manata çatıb. Həmin arada, muzdla çalışan işçilərin sayı 1 milyon 770 min nəfər olub. Bu baxımdan, əmək haqqı fondunun artması məcburi dövlət sosial sığorta haqları üzrə daha çox ödənişin həyata keçirilməsinə gətirib çıxarıb.

Məcburi dövlət sosial sığorta haqları üzrə yığılan vəsaitin əhaliyə ödənişlər üzrə xərclər yönəldiyini nəzərə alsaq, bu, sosial istiqamətə daha çox vəsaitin ayrılmasına səbəb ola bilər", - Bayramov qeyd edib.

# 20 minə yaxın abituriyent tələbə ola bilməyəcək



**Ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün ixtisas seçimi mərhələsi yekunlaşmaq üzrədir. Seçim hüququ əldə edən namizədlər gün ərzində ərizələrini sistem üzərindən təsdiqləyə bilərlər. Qeyd edək ki, ixtisas seçimi ötən gecə saat 23:59-da başa çatıb. Artıq 81 mindən çox abituriyent (subbakalavr) ərizəsini təsdiq edib. Müsabiqəyə yalnız ərizəsini təsdiq etmiş şəxslər buraxılırlar.**

Ali təhsil müəssisələrinə qəbul üçün ümumilikdə 60 min plan yeri ayrılıb. Onlardan 28 mini dövlət sifarişi əsasında təhsil almaq istəyənlər üçün nəzərdə tutulub.

**İxtisas qrupları üzrə plan yerləri:**

I qrup - 20 min 385 plan yeri, bunun 15 min 199-u dövlət sifarişi əsasında.

II qrup - 14 min 935 plan yeri, 4145-i dövlət sifarişi əsasında.

III qrup - 15 min 583 plan yeri, 4163-ü dövlət sifarişi əsasında.

IV qrup - 4732 plan yeri, bunun 3578-i dövlət sifarişi əsasında.

V qrup - 4704 plan yeri, 1602-si dövlət sifarişi əsasında.

Modern.az-a açıqlamasında **təhsil eksperti Əmrah Həsənli** qeyd edib ki, bu il ixtisas seçimi prosesi əvvəlki illərlə müqayisədə daha gərgin şəraitdə keçir: “Ötən illə müqayisədə plan yerləri artırılsa da, qeydiyyatdan keçənlərin sayı 80 mindən çoxdur. Bu isə o deməkdir ki, ilkin ehtimallara görə, 20 minə yaxın abituriyent qəbul ola bilməyəcək. Lakin qeyd etmək lazımdır ki, bu rəqəm hələlik yalnız ərizələrini təsdiq edənlərin ümumi sayına əsaslanır. Bu gecə seçim prosesi başa çatdıqdan sonra ixtisas seçimi edənlərin dəqiq sayı məlum olacaq və yalnız ondan sonra real mənzərəni görmək mümkün olacaq”.

Təhsil eksperti bildirib ki, qruplar üzrə vəziyyətə gəldikdə, birinci qrup ən çox plan yeri ayrılan qrupdur - 20 mindən çox yer nəzərdə tutulub.

“Bu səbəbdən düzgün seçim edən abituriyentlərin qəbul şansı yüksəkdir. İkinci qrupda da balans nisbətən qorunub, təxminən 15 min yer mövcuddur. Üçüncü qrupda isə hər zaman olduğu kimi vəziyyət gərgindir - müraciət edənlərin sayı plan yerlərini xeyli üstələyir və faktiki olaraq hər iki abituriyentdən biri kənarda qalacaq. Dördüncü qrup isə fərqli mənzərə yaradır: əsasən yüksək bal toplayan abituriyentlər arasında rəqabət daha kəskin keçir və bu səbəbdən hətta yüksək nəticə göstərənlər belə seçimlərində dəqiqlik etməsələr, qəbul şansını itirə bilərlər”.



## Güclü külək əsəcək

**Azərbaycanın bəzi bölgələrində avqustun 20-də gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı xəbərdarlıq verilib.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Naxçıvan MR, Qazax, Ağstafa, Şəmkir, Tovuz, Gəncə, Naftalan, Goranboy, Bərdə, Yevlax, Mingəçevir, Daşkəsən, Gədəbəy, Göygöl, Samux, Xızı, Altıağac, Qobustanda fasilələrlə şərq küləyi əsəcək, küləyin sürəti 13.9-20.7 m/san təşkil edəcək.

## 208 nəfər imtahansız tələbə oldu




**Bu il 208 nəfər müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ qazanaraq müvafiq ixtisaslara yerləşdirilib.**

Bu barədə Dövlət İmtahan Mərkəzi (DİM) məlumat yayıb.

Bildirilib ki, onlardan iki nəfər beynəlxalq fənn olimpiadası, 88 nəfər respublika fənn olimpiadası, 83 nəfər beynəlxalq idman yarışlarının qalibi olduğu, 35 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramı (IB) üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ qazanaraq müvafiq ixtisaslara yerləşdirilib.

Bundan əlavə, SAT imtahanının nəticələrinə əsasən və ADA məktəbinin məzunu kimi, ümumilikdə 676 abituriyent ADA Universitetinə qəbul olunub.



## Azərbaycana gətirilən kərə yağının qiyməti artıb

**2025-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycana 113 milyon 648 min ABŞ dolları dəyərində 16 min 633.8 ton kərə yağı idxal edilib.**

“APA-Economics”in Dövlət Gömrük Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, kərə yağı idxalı əvvəlki illə müqayisədə dəyər baxımından 33% və ya 28.3 milyon ABŞ dolları, həcm baxımından isə 3.6% və ya 576.5 ton artıb. Belə ki, 2024-cü ilin müvafiq dövründə Azərbaycana 85 milyon 311 min ABŞ dolları dəyərində 16.1 min ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib.

Qeyd edək ki, hesabat dövründə Azərbaycana idxal edilən kərə yağının 1 kiloqramının orta qiyməti illik müqayisədə 28.9% artaraq 11.60 manat təşkil edib.

Dövlət Statistika Komitəsinin hesabatına əsasən isə cari ilin ilk 7 ayı ərzində ölkədə 15 min 567.6 ton kərə yağı istehsal edilib. Bu göstərici 2024-cü ilin ilk 7 ayı ilə müqayisədə 6.4% azdır. Beləliklə, hesabat dövründə Azərbaycanda kərə yağı idxalı istehsaldan 1066 ton çox olub.

Xatırladaq ki, hesabat dövründə Azərbaycanda idxal kərə yağının orta satış qiyməti 24.06 manat, yerli kərə yağının isə orta satış q

iyməti 21.10 manat təşkil edib.



Tofiq Kərimov

## Tərtərdə həbs edilən məmur azadlığa buraxıldı

**Tərtər Rayon İcra Hakimiyyəti Aparatının Memarlıq və Tikinti şöbəsinin rüşvət ittihamı ilə həbs edilən sabiq müdiri, baş memar Tofiq Kərimovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

“Qafqazinfo” xəbər verir ki, Gəncə Ağır Cinayətlər Məhkəməsində keçirilən son iclasda hökm oxunub.

Məhkəmə təqsirləndirilən şəxsə külli miqdarda rüşvət alma və vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ittihamlarını əsaslı hesab etməyib.

T.Kərimov dələduzluqda təqsirli bilinib. Ona bu cinayətlə 2 il azadlıqdan məhrumetmə cəzası təyin olunub. Lakin onun 2023-cü ildən həbsdə saxlanıldığı müddət nəzərə alınaraq cəzası çəkilmiş hesab edilib və məhkəmə zalından azadlığa buraxılıb.



# Azərbaycan çörək ehtiyatını artırır - nəyə hazırlıq?

## Rusiyadan asılılıq kəskin azalıb, əvəzində Qazaxıstandan idxal artıb; iqtisadçı deyir ki, dövlət əkin sahələrinin azaldığını gördükdən sonra daha çox ehtiyat yaratmaq qərarına gəlib

**Azərbaycan 2025-ci ilin ilk yarısında buğda idxalını 56% artırıb. Ekspertlər deyir ki, idxalın artması daxili istehsalın azalması və ya istehlakın kəskin yüksəlməsi kimi dəyərləndirilməməlidir. İqtisadi təhlillər idxalın artmasının daha çox dövlət ehtiyatlarının gücləndirilməsi məqsədi daşıdığını göstərir.**

Azərbaycan 2025-ci ilin ilk yarısında buğda idxalını ötən ilin eyni dövrü ilə müqayisədə 56% artırıb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu dövrdə ölkəyə 602 255 ton buğda idxal edilib. Buğdanın dəyəri 130,6 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən illə müqayisədə müvafiq olaraq 216 min ton və 45 milyon dollar çoxdur. Dünyanın bir çox ölkəsində buğda əsas ərzaq məhsulu hesab olunur və ərzaq təhlükəsizliyində mühüm rol oynayır. Əhalisi çörək və un məmulatlarını sevən və bu qidalardan daha çox istifadə edən ölkəmiz üçün isə ərzaqlıq buğdanın sabit təchizatı xüsusilə vacibdir.

2024-cü ilin statistikasına əsasən, Azərbaycanın buğda idxalının əsas hissəsi Rusiya və Qazaxıstanın payına düşür. Regionda baş verən gərginliklər fonunda buğda ticarətində hər hansı risklərin olmasının un və çörək məhsullarının qiymətinə təsiri narahatlıq doğurur.

Hazırda ərzaqlıq buğda ilə ölkənin özünü təmin etməsi istiqamətində bir sıra tədbirlər görülür. Lakin hələ də daxili istehsal ümumi tələbatı tam qarşılamaq gücündə deyil: "Faktiki olaraq Azərbaycanın bu sahədəki tələbatının yalnız 40 faizi yerli istehsal hesabına ödənilir, 60 faizi isə idxalla təmin olunur. Bu ilin ilk altı ayında buğda idxalında ciddi artım müşahidə olunur. Bu artım əsasən Rusiya və qismən də Ukrayna bazarları hesabına baş verir. İdxalın ilin əvvəlində artması isə istehsalda azalma siqnalı deyil, daha çox daxili ehtiyatların tənzimlənməsi və planlı tədarük siyasəti ilə bağlıdır. Əvvəllər idxal əsasən payız və qış aylarında baş tuturdusa, bu il tədarük prosesi daha erkən mərhələyə çəkilib.

Bəs idxalın artmasının səbəbləri nədir? Rusiya Azərbaycana buğda ixracını məhdudlaşdıra bilərmi?

Məlumat üçün bildirək ki, buğda bitkisinin əkini adətən payız fəslində həyata keçirilir. Payızlıq buğdanın səpin prosesi dağlıq ərazilərdə dəniz səviyyəsindən 1000-1400 metr yüksəkliklərdə sentyabrın ayının sonlarına təsadüf edir. Müvafiq səviyyədən aşağı olan ərazilərdə səpin oktyabr ayında həyata keçirilir. Hündürlüyün azalması ilə əlaqədar olaraq səpin prosesi oktyabrın birinci və ikinci ongünlüyünə qədər uzana bilir. Ölkəmizdə payızlıq buğdanın səpini əksərən oktyabr ayının sonuna qədər yekunlaşır. Ümumilikdə buğda səpini orta dağlıq zonalarda sentyabrın 1-dən 20-dək, dağətəyi zonalarda sentyabrın 25-dən oktyabrın 10-dək, aran zonalarında isə oktyabrın 20-dən noyabrın 10-dək davam edir. Ümumilikdə, buğda çeşidindən asılı olmayaraq, əkin işlərinin payızın sonu və qışın əvvəlində aparılması tövsiyə olunur.

Kənd Təsərrüfatı Nazirliyi yanında yaradılmış Mərkəzi Qərargahın iyul ayına olan məlumatına görə, ölkə üzrə payızlıq taxıl sahələrinin 76,1 faizində biçin başa çatıb. Ümumilikdə 707 197 hektar sahədən 2 milyon 386 min 294 ton məhsul yığılıb. Bu mövsüm taxıl üzrə orta məhsuldarlıq 33,7 sentner/hektar təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 sentner/hektar daha yüksəkdir.

Biçinin gedişinə nəzər salsaq indiyədək 311 171 hektar buğda və 396 026 hektar arpa sahəsi biçilib. Bu sahələrdən müvafiq olaraq 1 milyon 131 min 941 ton buğda və 1 milyon 254 min 352 ton arpa əldə edilib. Buğda sahələrinin 62,8 faizində, arpa sahələrinin isə 91,2 faizində biçin artıq yekunlaşıb. Orta məhsuldarlıq buğda üzrə 36,4 sentner/hektar, arpa üzrə isə 31,7 sentner/hektar qeydə alınıb. Qeyd etmək lazımdır ki, Abşeron, Ağdaş, Astara, Bərdə, Cəlilabad, Göyçay, Kürdəmir, Lənkəran, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Tərtər, Ucar və Yevlax rayonlarında biçin tam başa çatıb.

Son illər ölkədə buğda istehsalında müəyyən narahatedici məqamlar yaranıb. Buğdanın əkin sahəsi 2019-cu ilə nisbətən 18,5 faiz azalaraq 546,3 min hektar olub, istehsal həcmi isə 2023-cü ilə nisbətən 8,1 faiz azalaraq 1 milyon 685 min 700 tona düşüb.

Buğda istehsalının əsas yükü ölkənin 10 rayonunun üzərinə düşür ki, bu rayonlar ümumi istehsalın 44,5 faizdən çoxunu təmin edir. Ən çox buğda istehsal edən rayonlar Cəlilabad (10,9%), Ağcabədi (5,6%), Füzuli (5,2%), İsmayıllı (3,9%), Şəki (3,8%), Hacıqabul (3,7%), Sabirabad (3,2%), Saatlı (3,2%), Beyləqan (2,8%) və Ağsu (2,7%) olub.

**İqtisadçı Xalid Kərimli mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Təkcə buğda deyil, ümumiyyətlə, payızdan sonra kənd təsərrüfatı məhsullarının yığım statistikaları müqayisə olunur. Əsasən də dənli bitkilərin yığımı payızda baş verir. Dənli və paxlalı bitkilərin əkin sahələri barədə fikir bildirmək olar. Bu sahələr keçən illə müqayisədə 5 faizə qədər azalıb. Ümumilikdə isə buğdanın əkin sahəsi keçən illə müqayisədə 12,3 faiz daha az olub. Bu il buğda 479 min hektarda əkilib, halbuki əvvəlki il bu rəqəm 546 min hektar idi. Yəni əkin sahələrində 12,3 faiz azalma müşahidə olunur.

Qeyd edilir ki, bu, sırf yerli istehsalın azalması ilə bağlı deyil. Lakin əkin sahələrinin azalması, təbii ki, yerli istehsalda da azalma olacağına işarə edir. Statistik göstəricilər ilin ilk yarısı üçün tamamilə doğrudur: idxal 56 faiz artıb. İdxalın strukturunda da kəskin dəyişiklik müşahidə olunur. Əvvəlki illərdə, xüsusilə pandemiyadan sonra və müharibə dövründə Ukraynanın payı azalmışdı. Qazaxıstandan isə çox az miqdarda buğda idxal olunurdu. Amma bu ilin statistikasında görürük ki, idxal strukturunda Qazaxıstanın payı artıb, Rusiyanın payı isə azalıb. Yəni idxalın 56 faiz artması ilə paralel olaraq struktur dəyişikliyi də baş verib. Beləliklə, Rusiyadan asılılıq kəskin azalıb, əvəzində Qazaxıstandan idxal artıb.

Bunun səbəbləri təkcə siyasi deyil, həm də iqtisadidir. Belə ki, bu ilin yanvarından Qazaxıstan buğda ixracı üçün marşrutlardan asılı olaraq subsidiya verməyə başlayıb. Təqribən hər ton üçün 20-30 min tengelik subsidiya verilir. Bu proses ilin yanvarından tətbiq olunmağa başlanıb. Təbii ki, bu da bizim idxalçıların alış trayektoriyasına təsir göstərir. Verilən subsidiyalar alış qiymətini ucuzlaşdırır. Bu amil nəqliyyat xərclərini də aşağı salır və nəticədə Qazaxıstandan almaq daha sərfəli olur.

Amma onu da qeyd etmək lazımdır ki, əsas səbəblərdən biri də budur ki, biz buğda idxalını sırf siyasi məsələlərə görə Rusiyadan azaltmamışıq, daha çox iqtisadi səmərəliliyə görə bu dəyişiklik baş verib".

**İqtisadçı əlavə edib ki, struktur dəyişikliyində əsas rol Qazaxıstandan alışların artması, Rusiyadan isə nisbətən azalmasıdır:** "Təbii ki, burada siyasi məqamlar da var. Çünki deyildiyi kimi, buğda strateji ərzaq məhsulu hesab olunur. Azərbaycanda Dövlət Ehtiyatları Agentliyi yaradılıb və qurumun ən çox ehtiyat etdiyi məhsul buğdadır. Həmçinin əkin sahələrinin azaldığını gördükdən sonra daha çox ehtiyat yaratmaq qərarına gəliblər. Təbii ki, burada siyasi amillər də əsas rol oynayıb. Amma digər tərəfdən bunu buğda istehlakının kəskin artması ilə əlaqələndirmək olmaz. Çünki Azərbaycanda buğdaya tələbat sabit templə artır. Yəni taxıla olan tələbat əhalinin artımı ilə paralel olaraq nisbətən sabit faizlərlə yüksəlir. Əsas ehtiyacların ödənilməsi üçün ehtiyatların yaradılması vacib sayılır".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Kriptovalyutadan qazananlar vergi ödəyəcək



**Azərbaycanın vergi qanunvericiliyində qeyri-sahibkarlıqdan gəlir, o cümlədən kriptovalyuta üzrə əməliyyatlardan gəlirlərin vergiyə cəlb olunması ilə bağlı mexanizm mövcuddur və kriptovalyuta üzrə əməliyyatlardan gəlir əldə edən fiziki şəxslər məcburi qaydada vergi orqanlarında uçota alınmaqla (VÖEN əldə etməklə) öz vergi öhdəliklərini yerinə yetirməlidirlər.**

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb.

Məlumata görə, Vergi Məcəlləsinin 99.3.8-ci maddəsinə əsasən, vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən əməkhaqqından başqa hər hansı digər gəlir təqdim olunduğu təqdirdə, onun qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəliri hesab edilir. Kriptovalyutadan gəlirin əldə edildiyi vaxt isə onun təqdim olunduğu tarix hesab edilir. Bu zaman vergiyə cəlb olunan gəlir kimi kriptovalyutanın alındığı vaxtla təqdim edildiyi tarix arasındakı qiymət artımı əsas götürülür.

# Evin tək oğlu süni göldə boğuldu

**18 yaşlı gəncin süni göldə boğularaq ölməsi ilə bağlı bəzi təfərrüatlar məlum olub.**

Teleqraf.az-ın cənub bürosunun verdiyi xəbərə görə, Lənkəranın Tükəvilə kənd sakini, 18 yaşlı Tohid Ələsgərov idmanın güləş növü ilə məşğul olub.

O, hər səhər dostları ilə dağlarda qaçır, daha sonra kənd ərazisindəki süni gölə gəlib əl-üzünü yuyurmuş.

Hadisə baş verən günü T.Ələsgərov adəti üzrə dostları ilə qaçışdan sonra gölə gəlib. Əl-üzünü yuduqdan sonra su içmək istədiyi an ayağı sürüşərək gölə düşüb. Gölün dərin olması səbəbindən o, boğularaq dünyasını dəyişib.

Tohid Ələsgərov ailənin tək oğlan övladı olub.

# Füzulidə kanalda batan yeniyetmədən 55 gündür xəbər yoxdur




**Füzuli rayonunda 16 yaşlı yeniyetmənin beton kanalda batmasından 55 gün keçməsinə baxmayaraq, onun meyiti hələ də tapılmayıb.**

Teleqraf.az-ın Qarabağ bürosunun məlumatına görə, əslən Aşağı Seyidəhmədli kəndindən olan və Zobucuq 4 qəsəbəsində yaşamış 2009-cu il təvəllüdlü Nihad Vüqar oğlu Nağızadə iyunun 26-da rayonun Kərimbəyli kəndi ərazisindən keçən beton kanalda batıb.

Hadisədən sonra ailənin müraciəti ilə kanalda suyun səviyyəsi endirilib və Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin əməkdaşları tərəfindən axtarışlara başlanılıb. Lakin bütün səylərə baxmayaraq, nəticə əldə olunmayıb və iyulun 19-dan etibarən axtarışlar dayandırılıb.

Nihad Nağızadə bu il təhsil aldığı qəsəbə məktəbində 10-cu sinfi bitirib. Onun atası Vüqar Nağızadə Füzuli Rayon Təcili və Təxirəsalınmaz Tibbi Yardım Briqadasında həkim kimi çalışır.

Vüqar Nağızadə bildirib ki, kanal boyunca 20 gün axtarış aparılsa da, dərin tunel hissəsində suyun çoxluğu səbəbindən oraya lazımi şəkildə baxış keçirilməyib. O, bir daha aidiyyəti qurumlara müraciət edərək, suyun qarşısının kəsilməsi və tunelə baxış keçirilməsi üçün yardım göstərilməsini xahiş edib.



## Petrosyan baş naziri Qəddafi ilə müqayisə etdi

**Erməni mənbələrinin yaydığı məlumata görə, Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan bir daha Nikol Paşinyanın yanında olduğunu göstərib. O, baş nazirin Qarabağdan köçmüş ermənilərin geri qaytarılması mövzusunu bağlamaq qərarını müsbət qiymətləndirib.**

Ter-Petrosyan 2018-ci ildən bəri Paşinyan hakimiyyətinin dayaqlarından biri olub və çətin məqamlarda ona açıq şəkildə dəstək verib. Bu gün də verdiyi bəyanatla Paşinyanın Qarabağ mövzusunu gündəmdən çıxarmasını müdafiə edib.

Daha da diqqətçəkəni odur ki, Ter-Petrosyan Paşinyana seçki ili ərəfəsində bu mövzunu "danışıqlar və imitasiya ilə uzatmaq" təklifini verib. O, dövlət idarəçiliyi sistemində ayrıca bir institut yaradılmasını və həmin institutun guya Qarabağdan olan ermənilərin sosial problemlərinin həlli ilə məşğul olmasını istəyib. Əslində isə məqsəd başqadır - Qarabağ ermənilərinin hüquqları uğrunda siyasi mübarizəyə başlamasının, mitinqlərə qoşulmasının və ya müxalifəti dəstəkləməsinin qarşısını almaq.

Maraqlı məqamlardan biri də odur ki, Ter-Petrosyan çıxışının əvvəlində "göstəriş xatirinə" Paşinyanı tənqid edir, hətta onu Qəddafi ilə müqayisə edir. Amma əslində Paşinyanın Qarabağ və oradakı ermənilər mövzusunda atdığı addımlar, məhz Ter-Petrosyanın illərdir istədiyi xətlə üst-üstə düşür.

Nəticə aydındır: Ter-Petrosyan və Paşinyan həmişə siyasi müttəfiq olublar və bu gün də eyni ideologiyanın davamçılarıdır. Onların baxışları üst-üstə düşür - Ermənistanı Türk dünyasına inteqrasiya etdirmək.

Belə bir modeldə isə nə Qarabağa, nə də ermənilərin ora qayıdışına yer yoxdur.



## Köçəryan və Sərkisyana "uduzdunuz" mesajı

**"Azərbaycan və Ermənistan arasında sülh Robert Köçəryan, Serj Sərkisyan və "Daşnaksütyun"un məğlubiyyətidir".**

Teleqraf.az xəbər verir ki, bunu Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" Partiyasının parlament fraksiyasının katibi Artur Ovannisyan deyib.

"Köçəryanlar, sərkisyanlar və daşnaklar iddia edirlər ki, Ermənistanla Azərbaycan arasında imzalanmış sülh müqaviləsi, yolların açılması və müstəqillik məğlubiyyətdir. Bəli, Ermənistanda sülh onların məğlubiyyətidir: onlar artıq müharibə təhlükəsi altında olan ağaları (Rusiyanı nəzərdə tutur - red.) üçün bizim boynumuza yeni ilgək taxa bilmirlər.

Beləliklə, Ermənistanda sülhün müxalifəti birdəfəlik məğlub oldu və əbədi olaraq tarixin zibilliyinə atılacaq", - partiya rəsmisi vurğulayıb.

# Paşinyan xalqa müraciətində niyə referendumdan danışmadı?

## Ekspert deyir ki, Ermənistanın baş nazirinin bu mövzuda susqunluğunun bir neçə səbəbi var; Bakıdan reaksiyalar

**Ermənistanın baş naziri Nikol Paşinyan avqustun 18-də ölkə vətəndaşlarına müraciətində bir sıra maraqlı açıqlamalar verib. "Vaşinqtonda keçirilən görüşdən sonra Ermənistanla Azərbaycan arasında sülh yaranıb. Avqustun 8-dən sonra biz tamam başqa Cənubi Qafqazda, tamamilə başqa Ermənistan Respublikasında yaşayırıq. Bu faktı dərk etmək lazımdır. Bu, asan deyil, çünki bu, bizim üçün qeyri-adi vəziyyət və reallıqdır. Biz sülhün nə olduğunu bilmirik, sülh şəraitində yaşamaq və işləmək nə deməkdir. Bu, bizim üçün qeyri-adi hissdir. Sülhdə yaşamağın nə demək olduğunu sıfırdan öyrənməliyik", - deyə Ermənistanın baş naziri xalqa müraciətində bildirib.**



Paşinyan həmçinin bildirib ki, ABŞ-ın hazırkı prezidenti Donald Tramp Azərbaycanla münasibətlərin normallaşması prosesində əvəzsiz rol oynayıb. Nikol Paşinyan Qarabağ barədə də danışıb: "2025-ci ilin martında Milli Məclisin kürsüsündən bəyanat vermişdim, bundan sonra xalqa müraciət etdim, söylədim ki, biz Qarabağ hərəkatını (separatçı proses - red.) davam etdirməməliyik, mən Qarabağ hərəkatını davam etdirməmək məntiqi ilə Ermənistana rəhbərlik edəcəm, razı olmasanız, inqilaba çağırdım. Hörmətli insanlar, siz mənim kimi Qarabağ məsələsini həll etmədən sülhün mümkün olmadığını anladığınız üçün inqilab etmədiniz. Qarabağ məsələsindən müəyyən qüvvələr Ermənistanın inkişafının qarşısını almaq üçün istifadə ediblər. Qarabağdan didərgin düşənlərə (könüllü gedən ermənilər - red.) gəlincə, mən dəfələrlə açıq şəkildə bəyan etmişəm ki, onların qayıdışla bağlı fikirlərini real hesab etmirəm. Mənim fikrim budur ki, bu strategiya ilə razılaşmayanlar münaqişənin yenidən canlandırılması məntiqinə qapılıblar".

Baş nazir bildirib ki, avqustun 8-də imzalanmış Vaşinqton bəyannaməsi və paraflanmış sazişlə Ermənistan və Azərbaycan 1991-ci il Almatı bəyannaməsi əsasında bir-birinin sərhədlərinin toxunulmazlığını və ərazi bütövlüyünü tanıyıb. N.Paşinyan anklavlarla bağlı qeyd edib ki, bu məsələ də delimitasiya və demarkasiya prosesində qarşılıqlı şəkildə həll edilməlidir: "Hazırda Azərbaycanın nəzarətində olan Ermənistanın suveren əraziləri kimi, bizim nəzarətimizdə olan Azərbaycanın suveren əraziləri var və bu məsələ demarkasiya prosesində qarşılıqlı şəkildə həll olunmalıdır".

**Paşinyan deyib ki, Azərbaycanda həbsdə olan ermənilərin Ermənistana təhvil verilməsi məsələsi sülh gündəliyində müzakirə edilmir:** "Çünki bu məsələ diplomatik iş tələb edir. Biz indiyə qədər 50-dən çox erməni məhbusun danışıqlar yolu ilə Ermənistana qayıtmasına nail olmuşuq". Zəngəzur dəhlizindən danışan baş nazir bildirib ki, bəzi qonşu ölkələr tərəfindən Zəngəzur dəhlizi ilə bağlı yanlış düşüncələr artıq aradan qalxıb. Prezident İlham Əliyev Vaşinqon görüşündən sonra bildirmişdi ki, müzakirələr zamanı Paşinyana "ev tapşırıqları" olub. Heç şübhəsiz ki, əsas "ev tapşırığı" erməni xalqına müraciətdə üstündən keçilən konstitusiyaya dəyişiklik və Azərbaycana qarşı ərazi iddialarının əsas qanundan, normativ hüquqi aktlardan çıxarılmasıdır.

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, Paşinyanın xalqa müraciəti əvvəl dediklərinin təkrarıdır:** "Baxın, elə özü də vurgulayır ki, Qarabağdan özləri çıxıb gedən soydaşlarının geri dönmələrini real hesab etmədiyini dəfələrlə deyib. Maraqlı olan Paşinyanın nədən bunu real hesab etməməsidir ki, Ermənistan baş naziri bilərəkdən onun üstündən keçir. Çünki burada səbəb təkcə o deyil ki, Qarabağdan gedənlərin Azərbaycan torpağında bizim qanunlara tabe olmadan yaşamalarının mümkünsüzlüyü gün kimi aydındır. Paşinyan həm də ona görə bunu real hesab etmir ki, Qarabağdan gedən haylar geri dönəcəkləri halda, Ermənistandan deportasiya olunanların yurd yerlərinə qayıtmalarının qarşısını ala bilməyəcəklərini anlayır".

**Deputat bildirdi ki, onun qonşu ölkələr adlandırdığı İranla Rusiyanın dəhlizlə bağlı yanlış düşüncələrinin guya aradan qalxdığı haqda açıqlaması isə həqiqəti əks etdirmir:** "Özəlliklə də İranın əlacı olsa, heç cür bu dəhlizi açılmağa qoymazdı. Amma indi ortada ABŞ var deyə, əvvəlki ötkəmlikləri buxarlanıb. Bu, təkcə qorxu amilindən qaynaqlanmır. İrandakı rejim Zəngəzur dəhlizinin Azərbaycanla Türkiyədənsə, kimin istəyirsən, hətta İsrailin də kontrolu altında olmasını özləri üçün daha əlverişli hesab edirlər. Onların əsas düşüncələri bundan ibarətdir".

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, siyasi şərhçi Tural İsmayılov isə bildirdi ki, Paşinyanın xalqa son müraciətində referendum barədə susması diqqətçəkəndir:** "Bu susqunluğun bir neçə səbəbi var. Birincisi, Paşinyan referendum məsələsini gündəmə gətirsəydi, dərhal müxalifətin sərt müqaviməti ilə üzləşəcəkdi. Ermənistan müxalifəti referendum ideyasını "milli xəyanət" kimi təqdim edir. İkincisi, hazırkı şəraitdə referendum barədə danışmaq cəmiyyətdə kəskin bölünməni dərinləşdirə bilərdi. Paşinyan isə xalqa müraciətində daha çox "sülhü öyrənmək" ideyasını qabartmaq istədi. Üçüncüsü, Vaşinqton bəyannaməsi artıq Ermənistanı hüquqi cəhətdən öhdəlik altına salır. Yeni konstitusiyanın dəyişdirilməsi beynəlxalq sənədlə təsdiqlənmiş mövqeyin daxili hüquq sisteminə uyğunlaşdırılması deməkdir. Amma Paşinyan bu məsələni indiki mərhələdə qabartmır, çünki referendum barədə danışmaq ictimaiyyətə "biz artıq Qarabağ məsələsini birdəfəlik bağlayırıq" mesajını çox sərt şəkildə ötürərdi. Dördüncüsü, referendum üçün real siyasi hazırlıq yoxdur. Ermənistan cəmiyyətində konstitusiya dəyişikliyinə dəstək azdır. Çoxluq bu dəyişikliyi Azərbaycanın təzyiqi kimi görür. Paşinyan isə anlayır ki, əgər xalq dəstəyi olmadan bu mövzunu qaldırsa, nəticədə özü üçün siyasi fəlakət yarada bilər. Beşinci səbəb beynəlxalq müstəvidədir. ABŞ və Avropa İttifaqı sülh sazişini dəstəkləyir, amma onlar da Paşinyanı çox sıxmaq istəmirlər. Çünki referendum ideyası Ermənistanda siyasi partlayış doğura bilər. Ona görə Qərb Paşinyana zaman verir".

**T.İsmayılovun sözlərinə görə, Paşinyan xalqa müraciətində referendumdan danışmasa da, bu, məsələnin gündəmdən çıxması demək deyil:** "Paşinyan xalqı birdən-birə sərt həqiqətlə üz-üzə qoymaq istəmir. O, əvvəlcə "sülh psixologiyasını" formalaşdırmağa çalışır. Sonra isə konstitusiya dəyişikliyini təqdim edəcək. Bu da göstərir ki, Paşinyan prosesləri mərhələli şəkildə aparmaq istəyir. Əgər o, müraciətində referendumdan danışsaydı, bu, sülhün elan olunmasından doğan pozitiv ab-havanı bir anda dağıda bilərdi. Çünki referendum Ermənistanda emosional mövzudur. Paşinyan yaxşı başa düşür ki, referendumun keçirilməsi həm də onun siyasi taleyini müəyyən edəcək. Ona görə indiki məqamda bu barədə danışmaq əvəzinə mövzunu ertələməyi üstün tutdu. Digər tərəfdən, konstitusiya dəyişiklikləri ilə bağlı referendum beynəlxalq aləmdə Ermənistanın yeni kursunu təsdiqləyəcək. Amma bunun üçün Paşinyana həm vaxt, həm də cəmiyyətin razılığı lazımdır. Bu səbəbdən də onun son çıxışında referendum mövzusu yox idi. Yəni Paşinyan mərhələ-mərhələ insanları buna hazırlayır".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 146 (8756) 20 avqust 2025

**Amerika Erməni Milli Komitəsi (ANCA) ABŞ administrasiyasını Azərbaycan tərəfindən "insan hüquqlarının pozulmasının dayandırılması, o cümlədən "Qlobal Maqnitski" sanksiyalarının həyata keçirilməsi, erməni hərbi cinayətkarların və hərbi əsirlərin azad edilməsini" təmin etmək üçün təcili addımlar atmağa çağırıb.**

# Trampa "Bakıya təzyiq et" tələbi

## ABŞ-dəki erməni lobbisinin anti-Azərbaycan təbliğatı dayanmır

ANCA həyasızcasına iddia edib ki, İrəvan və Bakının imzaladıqları və Vaşinqtonun dəstəklədiyi sənədlər Azərbaycanın "Artsaxdakı soyqırımı hərəkətlərini" legitimləşdirir. Təşkilat iddia edib ki, imzalanmış sənəd erməni xalqının əsas prioritetlərini əhatə etməyəcək: "Əsas prioritetlər "artsax" ermənilərinin öz evlərinə qayıtmaq hüququ, "əsir və girovlar"ın azad edilməsi, xristian müqəddəs yerlərinin beynəlxalq mühafizəsidir".

Bəyanatda yer alan digər bir yanlış iddia isə Azərbaycan Ordusunun guya Ermənistanın "suveren ərazisində" mövcudluğudur. Yeri gəlmişkən, qeyd edək ki, bu məsələ Ermənistandakı radikal revanşist kəsim tərəfindən də tez-tez qaldırılır. Onlar iddia edirlər ki, Azərbaycan Ermənistanın 1 faiz ərazisini zəbt edib. Halbuki radikalların və onlara züy tutanların Azərbaycanı işğalda ittiham etmələri heç bir əndazəyə sığmır və prosesləri tormozlamağa xidmət edir.



ANCA-nın ofisi

ANCA ABŞ Konqresinə Azərbaycan və Ermənistan arasında əldə edilmiş razılaşmalardakı "əsas qüsurları əks etdirən" memorandum təqdim edib. ANCA həmçinin ictimai təzyiqi ABŞ hakimiyyət orqanlarına yönəltmək üçün ictimaiyyətə yardım səyləri həyata keçirir. ABŞ-də ən böyük erməni təşkilatının bu çağırışları ondan xəbər verir ki, Tramp hakimiyyətinə qarşı kampaniya başladılıb. Əldə olunan razılaşmalar və Trampın qərarları erməni lobbisini özündən çıxarıb.

Bu təşkilat 1941-ci ildən ANCA adlanmağa başlayıb, ona qədər Ermənistanın Müstəqilliyi Naminə Amerika Komitəsi idi.

Komitə Birləşmiş Ştatlarda erməni xalqının əsas nümayəndəsidir, onun milli maraqlarının keşiyində dayanır, onu yerli, regional və federal səviyyədə təmsil edir. Ancaq qurum bu istiqamətdə fəaliyyət göstərməkdən daha çox Azərbaycan və Türkiyəyə qarşı mübarizə aparmağı əsas qayəsinə çevirib. Komitə bu məqsədi həyata keçirmək üçün ələ düşən bütün fürsətlərdən yararlanmağı qarşısına vəzifə qoyub. ABŞ-nin böyük və təsirli siyasi təşkilatlarından biri kimi ölkənin vergi ödəyicilərinin vəsaiti hesabına fəaliyyət göstərən ANCA-nın fəaliyyəti nəinki ABŞ-nin Cənubi Qafqazla bağlı maraqlarına, ümumilikdə xarici siyasətinə də ciddi zərər vurur. ANCA-nın Konqresdə bu qədər geniş təsir imkanlarına rəğmən, Ermənistan Cənubi Qafqazda Amerikanın bir saylı düşmən bildiyi İranın müttəfiqidir.

ANCA-nın lobbiçiliyi regionda siyasi sabitliyə və təhlükəsizliyə təhdid yaradır, ABŞ üçün bu qədər strateji bir regionda onun özünün ziyanına işləyir. Həmçinin regionda ABŞ-nin əsas strateji tərəfdaşı olan Azərbaycana qarşı mənfi fəaliyyət göstərir. ANCA-nın terrorçu təşkilat kimi tanınması, fəaliyyətinə məhdudiyyət qoyulması ilə bağlı çağırış edilsə də faydası olmayıb.

ANCA-nın, Amerikadakı ermənilərin Azərbaycana qarşı təbliğatına, fəaliyyətinə necə cavab verməliyik? Bu təbliğatın puça çıxması üçün nələr etməliyik?

**Milli Diçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Yeni Müsavat" bildirdi ki, haqlı tərəf olduğumuza arxayın olub prosesləri tamamilə öz axarına buraxa bilmərik**: "ABŞ dünyanın ən güclü dövlətidir və bu gün orada ermənilərin Azərbaycana qarşı apardığı iş, Ermənistanla sülhə qarşı fəaliyyətləri bizim də orada fəallaşmamızı zəruri edir. Bir neçə məsələni mütləq həyata keçirmək lazımdır. Əvvəla, ABŞ-yə bir daha xatırlatmaq lazımdır ki, biz Azərbaycan tərəfi bu gün sizin vasitənizlə Ermənistanla sülh sazişi layihəsini parafladıq, yəni bu o deməkdir ki, 30 il bizimlə döyüşən Ermənistan dövləti idi. Ermənistanın on minlərlə əsgərinin Azərbaycana qarşı müharibədə iştirak etməsi, minlərlə əsgərinin Azərbaycan ərazisində döyüşlərdə ölməsi də bunun sübutudur. Bütün bunlar sübut edir ki, Azərbaycan öz daxilindəki erməni etnik azlığı ilə müharibə aparmayıb. İkincisi, Ermənistandan fərqli olaraq Azərbaycan monoetnik dövlət deyil. Bu faktı da ABŞ administrasiyası və cəmiyyətinə çatdırmalıyıq".

**F.Quliyev dedi ki, guya Qarabağda erməni irsi və abidələrinin dağıdılması ilə bağlı ANCA-nın və digər erməni qruplarının uydurduqları cəfəngiyyatlara da son qoymaq üçün Azərbaycanda xeyli sayda etnosların qardaş kimi yaşamasını, onların Azərbaycanın bütün sahələrində birgə fəaliyyət göstərdiyini sübutlarla göstərmək lazımdır. Üçüncüsü, Azərbaycan dövlətinin və Ermənistan dövlətinin hansı mövqedə olduqları bir daha Amerika hakimiyyətinin nəzərinə çatdırılmalıdır:** "Bu nədən ibarətdir? Azərbaycan ərazisində Vladimir Putinin özünün etiraf elədiyi kimi, müharibə zamanı Ermənistana min tonlarla silah-sursat verdi. Başqa bir tədbirdə Putin dedi ki, biz müharibədə Ermənistana bütün yardımları edirdik və Azərbaycan ərazilərinin Ermənistanın nəzarətində qalmasını təmin etmək istəyirdik, lakin Nikol Paşinyan Qarabağı Azərbaycan ərazisi kimi tanıdı. Yəni bu təcavüzün arxasında Rusiyanın dayandığını və əsl məsuliyyətin Rusiyanın üzərində olduğunu qabartmalıyıq. Biz ABŞ-la apardığımız fəaliyyətdə Azərbaycan-İran münasibətlərini, Ermənistan-İran münasibətlərini gündəmə gətirməliyik. Yeni dünya düzənində Azərbaycanın iştirakçı olduğunu nəzərə çatdırmaq, İranın bu prosesə təzyiqlər etməsini, Azərbaycana qarşı olduğunu, Ermənistanla isə isti münasibətlərdə olduğunu göstərmək gərəkdir. Bu, həm də İsrailin, dünyanın hər yerində olan yəhudi lobbisinin Azərbaycana dəstək verməsini təmin edəcək".

**Həmsöhbətimizin fikrincə, Azərbaycan ANCA-nın antitəbliğatını puça çıxarmaq üçün həmçinin Amerikada olan yəhudi icmaları ilə də danışıqlar aparmalıdır ki, onlar bu məsələlərlə bağlı Konqresdə və Senatda olan gücləri işə salsınlar:** "Bütün imkanlarımızla Amerika ictimaiyyətini, Donald Trampın administrasiyasını rəsmi, yazılı, sübutlu formada məlumatlandırmalıyıq, reallığın nə olduğunu göstərməliyik. Əgər biz ciddi şəkildə çalışsaq, nə ANCA-nın, nə də başqa erməni təşkilatlarının bizə qarşı fəaliyyətlərinin nəticə verməyəcəyinə əminəm".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



## Cared Kohen İlham Əliyevin qəbulunda

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Koheni qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısı ilə Cared Kohenin bu ilin yanvarında Davosda görüşü məmnunluqla xatırlandı.

Ölkəmizlə "The Goldman Sachs Group Inc." şirkəti arasında 2010-cu ildən səmərəli əməkdaşlığın qurulduğu qeyd edilərək, Azərbaycan Respublikası Dövlət Neft Fondunun bu şirkətlə uğurlu tərəfdaşlığından məmnunluq bildirildi.

Görüşdə avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin dəstəyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlərin önəminə toxunuldu və bu nəticələrin regionun hərtərəfli inkişafı üçün geniş imkanlar yaratdığı vurğulandı.

Söhbət zamanı ölkəmizlə şirkət arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, "The Goldman Sachs Group Inc." 1869-cu ildə təsis edilib. İnvestisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində xidmətlər təqdim edən aparıcı qlobal maliyyə institutu hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. Mənzil-qərargahı Nyu-York şəhərində yerləşən şirkət 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

## Vaşinqton sənədi haqda erməni müxalifəti nə deyir?

**ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Ukrayna və digər Avropa ölkələri liderləri ilə görüş zamanı Azərbaycan və Ermənistanı misal gətirib.**

Tramp Almaniya kansleri Fridrix Mertsin Rusiyanın üçtərəfli görüşə qədər atəşi dayandırmalı olduğu barədə fikrinə cavab verərkən hər iki ölkəni xatırladıb.

"Mən bundan əvvəl 6 müharibəni dayandırmışam, atəşkəs olmayıb. Ötən həftə iki gözəl ölkə (Azərbaycan və Ermənistan - red.), onların arasında 35 il davam edən müharibə olub və burada da atəşkəs olmayıb", - deyə Tramp bildirib.

"İran, Rusiya və Türkiyə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında imzalanmış son razılaşmaya təhlükə kimi deyil, bir fürsət kimi baxa bilər". 1

Bunu isə İranın sabiq vitse-prezidenti Məhəmməd Cavad Zərif xarici KİV-ə müsahibəsində bildirib.

Onun sözlərinə görə, Vaşinqtonda əldə olunmuş razılaşmalar İran, Rusiya, Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan arasında Qafqazda əvvəllər təklif edilmiş tranzit əməkdaşlığını - 3+3 formatını canlandırmaq şansı yaradıb.

"Yeni saziş regional təşəbbüsümüzü həyata keçirilə bilən və davamlı edən qlobal kontekst yaradır", - deyən Zərif bildirib.

Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" partiyasının deputatı Arsen Torosyan avqustun 8-də ABŞ-də Azərbaycan, Ermənistan və ABŞ arasında imzalanmış üçtərəfli bəyannamə ilə bağlı müxalifətin manipulyasiyaya əl atdığını bildirib.

Teleqraf.az xəbər verir ki, o, müxalifətin iddialarına cavab olaraq, ABŞ-nin həmin sənədlərin tərəfi olmadığını, bunların icrasına şahidlik etdiyini deyib.

"İsrail Silahlı Qüvvələrinin Sina yarımadasından çıxarılması ilə bağlı Misir Prezidenti Ənvər Sədat, İsrail baş naziri Menahem Beqin və ABŞ Prezidenti Cimmi Karter arasında 1979-cu il martın 26-da üçtərəfli protokol imzalanıb. Cimmi Karter bizim işimizdə Donald Tramp kimi, şahid qismində sənədi imzalamışdı" - Torosyan sosial media hesabında yazıb.

YENİ MÜSAVAT
N 146 (8756) 20 avqust 2025



## Sülh sazişinin yeri və zamanı - 24 aprel, İstanbul...

**İranlı ekspert Əhməd Kazemi Vaşinqtonda imzalanan üçtərəfli bəyannamə və Trampın adını daşıyan Zəngəzur dəhlizi ilə bağlı yeni təfərrüatlar açıqlayıb. Bu haqda "Hraparak" məlumat yayıb.**

İran mənbələrinin məlumatına görə, dəhlizin eni 6 km olacaq və Türkiyənin cənub-şərqindəki "David dəhlizi" ilə birləşdiriləcək.

Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Əbu-Dabidə əldə olunmuş razılaşmalara əsasən, iki ölkə arasında yekun sülh sənədinin 2026-cı il aprelin 24-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə İstanbulda imzalanması planlaşdırılır. Kazemi bu tarixi son dərəcə simvolik hesab edir.

Dəhliz doqquz iştirakçıdan ibarət beynəlxalq investisiya konsorsiumu tərəfindən idarə olunacaq. Gəlir aşağıdakı kimi bölüşdürülür. 40%-i - ABŞ, 30%-i - Ermənistan və Azərbaycan, qalan 30%-i isə hələ dəqiqləşməyib, region ölkələri ilə danışıqlar davam etdirilir. Maraqlıdır ki, söhbət Ermənistan ərazisindən keçən dəhlizin istismarından əldə edilən gəlirdən gedir...



## Azərbaycan-Türkiyə-Ermənistan formatı yaradılır?

**8 avqust Vaşinqton görüşündən sonra bir sıra məsələlər gündəmə gəlib. Diqqətçəkən məqamlardan biri də Azərbaycan-Türkiyə-Ermənistan üçtərəfli formatının yaradılması ilə bağlıdır. Bəziləri bunun önəmli olduğunu və siyasi baxımdan müəyyən irəliləyişlərin əldə olunmasına gətirib çıxaracağını düşünür.**

Mövzu ilə əlaqədar Modern.az-a açıqlamasında politoloq Elxan Şahinoğlu bildirib ki, Türkiyə-Azərbaycan-Ermənistan üçtərəfli formatı yaradıla bilər: "Türkiyə-Azərbaycan-Ermənistan üçtərəfli formatının yaradılmasında, mənim üçün fayda var. Zatən artıq Azərbaycanla Ermənistan sülh sazişinin mətni paraflanıb. Dialoq, sülh quruculuğu işlərinə başlanılıb. Üstəgəl, Ermənistanın baş naziri Nikol Paşinyanın Türkiyə ilə də dialoqu var.

Baş nazir Türkiyəyə səfər etmiş, burada prezident Rəcəb Tayyib Ərdoğanla görüşmüşdü. Türkiyə ilə münasibətlərin normallaşması prosesinə start verilib. Düzdür, Türkiyə ilə sərhədlərin açılması, diplomatik münasibətlərin qurulması üçün gərək Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalasın. Düşünürəm ki, bu olmadan da Ankara-Bakı-İrəvan arasında təmasların genişlənməsi, dialoqun formalaşmasına üçtərəfli formatın müsbət təsiri ola bilər".

Politoloq vurğulayıb ki, Türkiyə ilə Azərbaycan onsuz da başqa üçtərəfli formatlarda da iştirak edir: "Misal üçün, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-İran, Azərbaycan-Türkiyə-Türkmənistan formatları da var. Yeni bir format - Azərbaycan-Türkiyə-Ermənistan formatı da yarana bilər. Bu da həm də Azərbaycanla Türkiyəyə imkan verər ki, Rusiya və İrandakı şovinist dairələrin bölgəyə və Ermənistana təsir imkanları azalsın".

# Dondurulan "907-ci düzəliş"də müəmma

## "Ermənistana qarşı istifadə olunmayacaq" şərti nə deməkdir?

**ABŞ Prezidenti Donald Trampın "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinin Azərbaycanla bağlı fəaliyyətinin dayandırılması ilə bağlı memorandumunun mətni dərc olunub.**



Prezidentin qərarında qeyd olunur ki, bu addım 1) ABŞ-ın beynəlxalq terrorizmə qarşı səylərinin dəstəklənməsi üçün vacibdir; 2) ABŞ Silahlı Qüvvələrinin və koalisiya tərəfdaşlarının hazırlığını dəstəkləyir; 3) Azərbaycanın sərhəd təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır; 4) Ermənistan və Azərbaycan arasında aparılan sülh danışıqlarını zəiflətmir və Ermənistan əleyhinə istifadə olunmayacaq.

Bakıxeber.com yazır ki, burada "Ermənistan əleyhinə istifadə olunmayacaq" fikri diqqət çəkir.

**Sözügedən məsələni şərh edən hərbi ekspert Ramil Məmmədlinin fikrincə, burada bir sıra məsələlərdən söhbət gedir:** "Məsələ ondadır ki, 2002-ci ildə "907-ci düzəliş" dondurulandan sonra Azərbaycana öz sərhəd təhlükəsizliyini təmin etməkdən ötrü bir sıra hərbi xarakterli yardımlar edildi. Xəzərdə sərhəd mühafizəsi ilə bağlı bir sıra xüsusi funksional imkanlara malik katerlər, Azərbaycan-İran sərhədinin mühafizəsini gücləndirmək üçün müasir avadanlıqlar verildi. Həmin avadanlıqlar və digər vasitələr məhz Birləşmiş Ştatlarda istehsal edilirdi. Yəni "907-ci düzəliş"in dondurulması hesabına ABŞ öz vəsaiti ilə bu vasitələrlə Azərbaycanı təmin edir. İndi həmin vasitələrin müasirləşdirilməsinə, proqram təminatının yenilənməsinə ehtiyac var. Çünki ABŞ 2021-ci ilin ortalarında Əfqanıstanı tərk edəndən sonra ermənilərin maraqlarından çıxış edən prezident Cozef Bayden "907-ci düzəliş"i dondurmadı. O üzdən, yardım məsələsində bir müddət fasilə yarandı. "907-ci düzəliş" dondurulsa da, dondurulmasa da Azərbaycan öz imkanları hesabına sərhədlərinin təhlükəsizliyini təmin edir. Ancaq düzəlişin dondurulması hərbi-texniki baxımdan bizim üçün daha məqbul variantdır. Həm də siyasi baxımdan bunun bizim üçün əhəmiyyəti var. "907-ci düzəliş"in Ermənistan əleyhinə istifadə olunmayacağına gəldikdə isə burada hücum xarakterli silahların verilməsindən söhbət gedir. Yəni ABŞ Azərbaycana hərbi yardım etsə də, hücum xarakterli silahlar bura daxil deyil. Onun məzmunu budur".

❑ **"Yeni Müsavat"**

# Minsk Qrupunun ləğvi Finlandiyada olacaq

## 2025-ci ilin dekabrında hazırkı sədr ölkə Finlandiyada keçiriləcək ATƏT üzvü dövlətlərin xarici işlər nazirlərinin görüşündə tarixi qərarın qəbulu gözlənilir




**8 avqust Vaşinqton görüşü zamanı Azərbaycan və Ermənistan liderləri ABŞ Prezidentinin şahidliyi ilə ATƏT-in Minsk Qrupunun və əlaqədar strukturların buraxılması ilə bağlı qərar qəbul edib. Azərbaycan Xarici İşlər Nazirliyi artıq iki ölkənin ATƏT katibliyinə birgə müraciət etdiyi barədə ictimaiyyətə məlumat verib.**

ATƏT-dən isə bildirilib ki, qurumun fəaliyyətdə olan sədri kimi Finlandiya Minsk prosesi və əlaqəli strukturların bağlanması ilə bağlı birgə müraciətinə cavab olaraq iştirakçı dövlətlərlə müzakirələrə rəhbərlik edəcək.

Minsk Qrupunun tarixi 1992-ci ilə gedib çıxır. Həmin ilin martın 24-də Helsinki şəhərində ATƏM-in Xarici İşlər Nazirləri Şurasının iclası keçirilirdi. Görüşdə Qarabağda vəziyyət müzakirə olunub, ATƏM-in Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilib. 1994-cü ildə ATƏT-in Budapeşt şəhərində keçirilən zirvə görüşündə həmsədrlik institutu yaradılıb.

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rizvan Nəbiyev** Modern.az-a bildirib ki, 1992-ci ildə ATƏM-in Minsk Qrupu kimi yaradılmış bu strukturun ləğvi ATƏT-ə üzv olan bütün dövlətlərin konsensus əsasında verilmiş qərarına uyğun baş tuta bilər: "Bu, ATƏTdaxili qərar qəbuletmə prosedurundan irəli gəlir. Sülh sazişinin imzalanması yolunda əsas maneələrdən biri olan ATƏT-in Minsk Qrupunun sözügedən müqavilə imzalanana qədər ləğv edilməsi Azərbaycan tərəfindən reallıq kimi gündəmə gətirilib və qəbul edilib. Beləliklə, ATƏT çərçivəsindəki keçmiş münaqişə ilə əlaqəli bütün digər mexanizmlər də, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi funksiyasız strukturlar da de-yure ləğv ediləcək. 2025-ci ilin dekabrında hazırkı sədr ölkə Finlandiyada keçiriləcək ATƏT üzvü dövlətlərin xarici işlər nazirlərinin görüşü həm tarixi şansdır, həm də sözügedən qərarın qəbulu üçün hüquqi- siyasi əsası olan yeganə səlahiyyətli platformadır. 30 illik işğal faktorunu nəzərə alaraq məsələnin siyasi tərəfinə də diqqət yetirmək lazımdır. Belə ki, gələcəkdə hər hansı potensial risklərin qarşısını almaq üçün də Minsk Qrupunun de-yure ləğv edilməsi olduqca əhəmiyyətlidir. ATƏT-in Minsk Qrupundan Ermənistandakı revanşist qüvvələr təzyiq vasitəsi kimi istifadə edə bilərdi. Digər tərəfdən, bu məsələni regionda öz maraqlarını güdən qüvvələr bu və ya digər formada gündəmə gətirə bilərdi. Bütün bu potensial riskləri birdəfəlik aradan qaldırmaq üçün ATƏT-in Minsk Qrupu sülh müqaviləsi imzalananadək ləğv edilməlidir.

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edərək münaqişəni beynəlxalq hüququn prinsipləri əsasında həll etdiyindən artıq ATƏT-in Minsk Qrupunun fəaliyyətinə lüzum qalmayıb, mandat üçün əsas və yaxud predmet aradan birdəfəlik qalxıb.

Finlandiyada 1992-ci ilin martında təsis edilmiş Minsk Qrupunun 33 il sonra Finlandiyada da ləğvi qarşılıqlı etimad mühitinin formalaşmasına da töhfə verə bilər. Paraflanmış sülh müqaviləsi dövlətlərarası münasibətlərin yaradılmasını özündə ehtiva edir".

# Bakı və İrəvan “Putinin qrupu” ndan çıxa bilmir

## 2021-ci ilin əvvəlində Rusiya prezidentinin təşəbbüsü ilə yaradılan üçtərəfli işçi qrupu fəaliyyətsizdir, amma...

**Ermənistanın ərazi idarəetməsi və infrastruktur naziri David Xudatyan bildirib ki, Ermənistan və Azərbaycan kommunikasiyaların açılması ilə bağlı razılaşmalar çərçivəsində ikitərəfli işçi qrupları yaradacaq. Bəllidir ki, 2021-ci ilin əvvəlində Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə xüsusi üçtərəfli işçi qrupu yaradıldı. Qrupda Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri səviyyəsində təmsil olunur. İşçi qrupu yaradılanda əsas hədəflərdən biri iki dövlət arasında sərhədlərin müəyyənləşməsi ilə yanaşı, Zəngəzur dəhlizinin də açılması idi. Son illərdə üçtərəfli komissiya real nəticə verməyib, iclaslar ya təxirə salınıb, ya da nəticəsiz bitib.**



Əgər bu məsələ üzrə ikitərəfli komissiya yaradılsa, Vətən müharibəsindən sonra yaradılmış Azərbaycan, Rusiya və Ermənistanın baş nazir müavinlərindən ibarət işçi qrupunun - üçtərəfli komissiyanın buraxılması gündəmə gəlir. Bu, həm tərəflər arasında etimad mühitinin formalaşdığını, həm də üçüncü tərəfin, xüsusən Rusiya kimi aktorun bu prosesdə iştirakının əhəmiyyətini itirdiyini göstərir. Yada salaq ki, iki ölkə arasında aparılan birbaşa danışıqlar nəticəsində Qazax rayonuna məxsus Bağanis Ayrım, Aşağı Əskipara, Qızılhacılı və Xeyrimli silah işlədilmədən, diplomatik yolla Azərbaycana qaytarıldı. Əbu-Dabi görüşündə dövlət başçıları delimitasiya üzrə komissiyanın fəaliyyətinin aktivləşdirilməsinə dair konkret tapşırıq veriblər. Bu isə onu göstərir ki, tərəflər öz aralarında birbaşa əlaqə və qarşılıqlı siyasi iradə əsasında real nəticələr əldə edə bilirlər. İki ölkə arasında sərhədin digər istiqamətlərində də uğurlar əldə edəcəklər. Bu, üçtərəfli deyil, ikitərəfli görüşlər çərçivəsində mümkün olacaq.

Ekspertlərə görə, üçtərəfli komissiyanın mexanizmi 2020-ci ilin 10 noyabr bəyanatı və 2021-ci ilin yanvarında Moskvada qəbul edilmiş üçtərəfli razılaşmaya əsaslanır. Yəni komissiya yalnız tərəflərdən birinin istəyi ilə avtomatik ləğv olunmur, hər üç tərəf buna razılaşmalıdır.

Yəni Azərbaycan və Ermənistan ikitərəfli format seçsələr belə, Moskva bu mexanizmdən çıxarılmağa qarşı ola bilər, çünki bu, onun bölgədəki təsirini azaldır.

Bu həftəsonu Rusiyada Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 23-cü iclası keçiriləcək. Hökumətlərarası Komissiyanın həmsədrləri Rusiya Federasiyası baş nazirinin müavini Aleksey Overçuk və Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevdir.

Aleksey Overçuk üçtərəfli işçi qrupunu xatırladıb və bildirib ki, bir sıra məsələlər Rusiyanın Cənubi Qafqazdakı maraqları ilə, ilk növbədə, dəmir yolu əlaqələrinin inkişafı baxımından bağlıdır və buna görə də Moskva onların həlli yollarının tapılıb-tapılmadığını öyrənməkdə maraqlıdır.

Məsələ ilə **politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a bildirdi ki, 30 il işğal dövründə, torpaqlarımızın azad olunmasından sonrakı illərdə vasitəçilik institutunun problemləri həll etmədiyi bəllidir. Vasitəçilərin öncə öz dövlət maraqlarını qabartması, geosiyasi maraqlarını güdməsi Qarabağ probleminin 30 il uzanmasına gətirib çıxardı. Azərbaycanın vasitəçilik institutuna inamı və etimadı tamamilə aradan qalxdı və Qarabağ məsələsini Azərbaycan özü həll etdi: “30 il Minsk Qrupunun həmsədrlərinin həll etmədiyi problemi Azərbaycan öz gücünə həll etdi. Bundan sonra sülh müqaviləsinə hazırlıq, sərhədlərin müəyyənləşdirilməsi, kommunikasiyaların açılması kimi məsələlərlə bağlı danışıqlar dövrü başlandı. Rusiya, ABŞ, Avropa İttifaqı və digər güc mərkəzləri bu prosesdə vasitəçilik oyunlarına davam etmək üçün mübarizəyə, Azərbaycana və Ermənistana təsir göstərməyə başladılar. Nəticədə müxtəlif danışıqlar formatı meydana gəldi. Ancaq zaman və vasitəçilik edənlərin siyasəti göstərdi ki, Azərbaycanla Ermənistan heç bir vasitəçi olmadan apardıqları danışıqlarda daha effektik nəticələr əldə edə bilirlər. Beləliklə, sınaqdan keçirilən formatlar get-gedə əhəmiyyətini itirdi və ən uğurlu formatın Azərbaycan və Ermənistan ikitərəfli danışıqlar formatı olduğu təsdiqləndi. Ona görə də indi Ermənistanın ərazi idarəetməsi və infrastruktur naziri David Xudatyanın "Ermənistan və Azərbaycan kommunikasiyaların açılması ilə bağlı razılaşmalar çərçivəsində ikitərəfli işçi qrupları yaradacaq" bəyanatını təbii hesab etmək lazımdır".

**Politoloq vurğuladı ki, iki ölkə arasında kommunikasiyaların açılması bu ölkələrin hökumətlərinin həll etməli olduğu məsələdir. Bu məsələnin həlli üçün kənar vasitəçiyə ehtiyac yoxdur**: “Rusiya və digər ölkələr bunu qəbul etməlidir. Xüsusilə Rusiya qəbul etməlidir ki, onun iştirakı ilə yaradılmış üçtərəfli işçi qruplar və komissiyalar gözlənilən nəticəyə gətirib çıxarmır. Rusiya əgər Azərbaycanla Ermənistan arasında sülhdə, kommunikasiyaların açılmağında, əlaqələrin qurulmağında maraqlıdırsa, Azərbaycanla Ermənistanın məsələləri öz aralarında həll etməsinə mane olmamalıdır. Ancaq təəssüf ki, Azərbaycan və Ermənistan ikitərəfli format seçsələr belə, Moskva bunu sözdə dəstəklədiyini bir neçə dəfə bəyan etsə də əməldə bunun əksini edir. Aleksey Overçuk üçtərəfli işçi qrupunu xatırlatması və bir sıra məsələlərin Rusiyanın Cənubi Qafqazdakı maraqları ilə, ilk növbədə, dəmir yolu əlaqələrinin inkişafı baxımından bağlı olduğunu, buna görə də Moskvanın onların həlli yollarının tapılıb-tapılmadığını öyrənməkdə maraqlı olduğunu bəyan etməsi o deməkdir ki, Rusiya üçtərəfli işçi qrupundan - komissiyadan kənarda qalmaq niyyətində deyil. Azərbaycan və Ermənistan bunu istəməsələr belə, Rusiya yapışdığını buraxmaq istəmir”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

## Ermənistanın Rusiyada konsulluğu bağlandı




**Uralda Ermənistanın konsulluğu bağlanıb.**

Bu barədə Ura.ru saytı konsulluğa istinadən məlumat yayıb.

Qeyd olunur ki, onun fəaliyyətinin dayandırılmasından əvvəl Ermənistan Apostol Kilsəsini dəstəkləyən Ermənistanın Yekaterinburqdakı fəxri konsulu Narek Spartakyan vəzifəsindən azad edilib.

“Hörmətli vətəndaşlar, Ermənistanın Yekaterinburqdakı fəxri konsulu Narek Spartakyanın statusunun ləğv edilməsi ilə əlaqədar olaraq bildiririk ki, sözügedən fəxri konsulluğun ofisi öz fəaliyyətini dayandırıb. Yeddi il ərzində bizə 57 mindən çox vətəndaş müraciət edib”, - məlumatda bildirilib.

Bütün məsələlərlə bağlı Ermənistanın Rusiyadakı digər konsulluq müəssisələrinə müraciət etmək tövsiyə olunur.

## Diplomatları Qafana niyə yığırlar?



**Ermənistan Xarici İşlər Nazirliyinin adətən “səfir toplantısı” və ya “avqust müşavirəsi” adlanan illik toplantısı bu il avqustun 25-27-də Zəngəzurda, Qafan icmasında keçiriləcək.**

Bu barədə Ermənistan KİV-nin məlumatında bildirilib.

Güman olunur ki, Zəngəzur təsadüfən seçilməyib. Vaşinqtonla İrəvan arasında məşhur “Tramp yolu” (Zəngəzur dəhlizi) sazişinin imzalanmasından sonra bu region və burada çəkiləcək “maneəsiz yol” Ermənistanın xarici siyasətinin ən həssas nöqtəsidir.

Məlumata görə, erməni səfirlər həmin hissəyə aparılacaq, ərazi ilə tanışlıq olacaq və Zəngəzur dəhlizinin ABŞ-a 99 illiyə icarəyə verilməsinin diplomatik məqsədləri açıqlanacaq.

Bu, Xarici İşlər Nazirliyinin mərkəzi aparatının, diplomatik nümayəndəliklərin və konsulluq müəssisələrinin rəhbərlərinin ənənəvi olaraq illik konfransıdır.

Bəzi məlumatlara görə, həmin günlərdə Ermənstanda akkreditə olunmuş xarici səfirlər də Zəngəzur bölgəsinə gedəcək, onlar da müqavilələrin təfərrüatları ilə tanış olacaqlar.

## Culfa-İrəvan-Gürcüstan dəmir yolu açılacaq



**İran və Ermənistan İrəvanda nəqliyyat və tranzit infrastrukturu sahəsində əməkdaşlığı gücləndirmək barədə razılığa gəlib.**

Teleqraf.az xəbər verir ki, bu barədə İran mediası məlumat yayıb.

Məlumata görə, İranın yol və şəhərsalma naziri Fərzanə Sadiq Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Davit Xudatyanla tranzit əlaqələri və logistikanı gücləndirmək yolları barədə müzakirə aparıb. İranlı nazir Culfa-İrəvan-Gürcüstan dəmir yolu xəttinin yenidən açılmasını regional tranzit üçün əsas addım kimi qeyd edib.

Xudatyan İran yük maşınlarının tranzit tarifləri ilə bağlı mübahisənin araşdırılması üçün birgə işçi qrupunun yaradılacağını deyib.

Ermənistan tərəfi Şimal-Cənub dəhlizinin yeni hissəsinin tender planlarını da təsdiqləyib.



# Bütün turistlər gəzəyəndir

**Zamin HACI**
zaminhaci@gmail.com

## Yaxud stereotiplər harada aktual olur

**Milli mətbuatımız 150 illiyində 150-ci dəfə də sınaqdan uğurla çıxmadı. Son turist əhvalatında qəbirlərə qarşı təhqiramiz hərəkətdə suçlanaraq saxlanan şəxslərin milliyyətinin xüsusi vurğulanmasını, qabardılmasını nəzərdə tuturam. 2003-cü ildə jurnalistlərin qurultayında qəbul edilən, hazırda palaz boyda mətni Mətbuat Şurasının (MŞ) saytında duran, lakin heç kimin vecinə almadığı "Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"nın 3-cü prinsipi məhz bununla başlayır: "Jurnalist adamları millətinə, irqinə, cinsinə, dilinə, peşəsinə, dininə, yaşadığı və ya anadan olduğu yerinə görə pisləməməli, onlar haqqında bu qəbildən olan bilgiləri qabartmamalıdır". Hərçənd dərinə getsək, bu, "Media haqqında" Qanunda da var, 14-cü maddədə yazılıb: "İrqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkilik təbliğ olunmamalıdır". Amma həmişə olduğu kimi, belə tətbiqatlar yalnız yuxarılara lazım olanda yada düşür.**

İnsafən, Audiovizual Şura bu kimi temalarda bizim MŞ-dən daha aktivdir. Məsələn, keçən ay "kişi qadından üstündür" cəfəngiyyatını yaydığı üçün telekanalizasiyalardan birinə xəbərdarlıq etmişdilər.

Belə yanaşmalardan sonra turizmin niyə inkişaf eləmədiyini soruşuruq. Əlbəttə, tək səbəb bu deyil, ancaq ümumi yanaşmamızın əlamətidir.

Bizdə ümumiləşdirmə, stereotiplərlə yaşamaq çox aktualdır. Bir jurnalist yalan yazırsa, vəssalam, bütün yazarları yalançı elan edirik. Hansısa rayondan bir axmaqla qarşılaşırıqsa, avtomatik o rayonun on minlərlə sakini çıxdaş edilir. Səbəb nədir? Səbəb avtoritar, bəzən hətta totalitar yanaşmamızın güclü olmasıdır. Biz fərdə, şəxsiyyətə, bir insana yox, kütləyə, cəmiyyətə, xalqa önəm veririk, dənizin içində damlanı, binanın divarında kərpici görmürük. Fərdi azadlıqların, insan hüquqlarının zəif qorunduğu ərazilərdə həmişə belə problemlər üzə çıxır və həllini tapa bilmir. Məşhur aforizmdə deyilən kimi: "Yalnız demokratiyalar öz aralarında savaşmırlar". Təəssüf ki, nə biz demokratıq, nə ölkəmizə gələn turist. Nəticə də toqquşma, nifrət, həbs, mənasız diskussiyalar...

Yarlık yapışdırmaqda ustayıq. 2024-cü ilin rəsmi statistikasına görə, dövlət nikahı ilə qeydə alınmayan ailələrdə doğulan uşaqların sayı 13 min 228 nəfər olub. Sivil dünyada buna normal baxırlar, hərçənd bizdə böyük ehtimalla dini nikahlar önə keçməkdədir, səbəb budur və insanların azadlığı seçməyi ilə heç bir əlaqəsi yoxdur. Eyni zamanda dövlət nikahı, rəsmi qeydiyyatla doğulmaq uşağa heç zad vermir axı. Nə uşaq pulu var, nə hansısa sosial güzəştlər. Ona görə də rəsmi nikahla uşaq doğmağın uzağı gələcəkdə ailə dağılsa, aliment-zad almaq, əmlak bölgüsü tipli işlərdə əhəmiyyəti qalır. Başqa heç nə. O cümlədən Arvad-uşaq Komitəsi də "boş çoxluq"dan başqa bir şey deyil. Söhbət çox uzandı, yarlık nədir, onu yazım: hələ də bizdə, jurnalist, publisist-filan arasında rəsmi nikahsız doğulan uşaqlar haqda axmaqcasına, təhqiramiz "bicbala" ifadəsi işlədənlər var.

Təsəvvür edin. 21-ci əsrdir, bunlar hələ də hansısa bambılı peçatsız doğulmağa "bic" adı yapışdırır. Beləsinə nə ad qoyasan? "Tüfeyli, qrabitel"... Özü də təəssüf ki, belələrinə hətta "mütərəqqi" yazarlar arasında rast gəlinir. İndi nə edək, 13 min uşağı "bicbala" adlandıraq? Məncə, belə düşünənin özü "bicbala"dır.

Sonda məzarlıqda qanunu pozan turistlərin həbsini də müəyyən dərəcədə bəlkə çox sərt tədbir kimi qiymətləndirmək olar. Cərimə edib buraxmaq mümkün idi. Orada uyuyanlar bizim üçün əzizdir, turist isə bunu bilməyə bilər (deyəsən, onların ölkəsində, ümumiyyətlə, elə məzarüstü abidələr olmur). Biz özümüz dünyanın çox yerlərində milli adət-ənənələri bilirikmi? Turizmə aid dövlət qurumlarımızın saytlarında Azərbaycanda adətlər, dəyərlər haqda hansısa informasiyalar yerləşdirilibmi? Təəssüf ki, mən özümü turist yerinə qoyub belə məlumatları tapa bilmədim.



# Şahìn Mustafayev Moskvaya gedìr?

## Azərbaycan-Rusiya münasibətlərinin ən kəskin dövründə baş nazirin müavini qonşu ölkənin paytaxtında həmkarı ilə nələri müzakirə edəcək? - ilginc gəlişmə

**Bu həftənin sonunda Rusiyada Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın növbəti iclası keçirilməlidir. "Trend" bu barədə etibarlı mənbələrdən məlumat əldə edib. "Yeni Müsavat" qeyd edir ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədrləri - Rusiya baş nazirinin müavini Aleksey Overçuk və Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevdir. Aleksey Overçuk xəbəri təsdiqləyib.**

Cənubi Qafqaz üzrə ekspert Konstantin Tasits Bakı-Moskva gərginliyindən "Vestnik Kavkaza"a danışarkən deyib ki, Rusiya və Azərbaycanın iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının iclasının təşkili ikitərəfli böhranın yumşalmasından xəbər verir: "Azərbaycan iyunun sonunda Rusiya Federasiyası ilə ilkin olaraq siyasi əlaqələri dondurdu. İndi biz hökumətlərarası komissiyanın işinin bərpa olunduğunu görürük. Əgər görüş baş tutsa, xüsusilə Rusiyada bu, dialoqun davam etdiriləcəyinə və tərəflərin münasibətləri tamamilə pozmağa meylli olmadığına sübut olacaq".

"Rusiya ilə münasibətləri gərginləşdirməyə ehtiyac yoxdur, əksinə, dialoq qurmağa, yaranmış gərginliyi aradan qaldırmağa çalışmalıyıq". Bunu Haqqin.az-a **deputat Qüdrət Həsənquliyev** deyib. Onun sözlərinə görə, Azərbaycan artıq Rusiyaya öz tələblərini təqdim edib və indi onların beynəlxalq hüquq normalarına uyğun yerinə yetirilməsini təmin etməlidir: "Vəziyyətin daha da gərginləşməsi ölkəmizin dövlət və milli maraqlarına cavab vermir. Azərbaycanla Rusiya arasında münasibətlərin pisləşməsində maraqlı olan qüvvələr var. Əgər ölkələrimiz arasında gərginlik qanlı qarşıdurmaya çevrilsə, onlar şad olardılar".

Deputat ümid edib ki, Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın bu həftə Moskvada keçiriləcək 23-cü iclasında Şahin Mustafayev Aleksey Overçukla bir çox yığılmış məsələləri müzakirə edəcək.

"Azərbaycanın Rusiya ilə, eləcə də digər qonşularla iqtisadi əlaqələri davam edir və onların qopması müzakirə olunmur". Bu sözləri Haqqin.az-a açıqlamasında **deputat Fazil Mustafa** deyib.

Deputat əlavə edib ki, rəsmi Bakı və Moskva münasibətlərin pisləşməsi və ya dayandırılması ilə bağlı heç bir şərh və ya mövqe bildirməyiblər, ona görə də iki dövlətin rəsmi mövqeyinə riayət etmək düzgün olardı.

2025-ci ilin yanvar-iyun ayları ərzində iki ölkə arasında ticarət dövriyyəsi 2,5 milyard ABŞ dollarına çatıb ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 16,2% və ya 352,2 milyon dollar çoxdur. Rusiya Azərbaycanın ümumi ticarət dövriyyəsinin 10,33%-ni təşkil edir.

Qeyd edək ki, 1996-cı ildə iqtisadi əlaqələrin inkişaf etdirilməsi və əlaqələndirilməsi məqsədi ilə Azərbaycan-Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Daimi Komissiya yaradılıb. Komissiya iki ölkə arasında iqtisadi əməkdaşlıq problemlərini öyrənir, həmçinin bu əlaqələrin inkişafı üçün zəruri olan layihələr və təkliflər hazırlayır.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadənin "Yeni Müsavat"a bildirdiyinə görə, Overçuk təsdiqləsə də, Azərbaycan hökuməti Şahin Mustafayevin səfəri barədə rəsmi məlumat yaymayıb. Bununla belə, baş nazir müavininin Moskvaya gedəcəyini də istisna etməyən Ç.Qənizadə hesab edir ki, gərgin münasibətlərin yumşalması qarşı tərəfdən asılıdır:** "Azərbaycanın heç bir parlament üzvü, yaxud partiya rəhbəri Moskvanı bombalamağa çağırış etməyib. Ancaq Rusiya Dumasının üzvləri, ayrı-ayrı jurnalistləri, partiya sədrləri Azərbaycanı terrorla, işğalla hədələyirlər. Ona görə də Overçuk və digər Rusiya rəsmiləri bu təhdid leksikonuna son qoyulması istiqamətində addımlar atmalıdır. Azərbaycanı özünə dost və müttəfiq sayan ölkə bu dildə danışırsa, o zaman ortada səmimilik yoxdur. Bu baxımdan, Şahin Mustafayev Moskvada bu məsələləri müzakirə edə bilər. Lakin regionda baş verən son hadisələr fonunda Rusiyanın Azərbaycana qarşı hərbə-zorba addımlarının səngiməsini gözləmirəm".

**Ç.Qənizadə Azərbaycan-Rusiya danışıqlarında əsas müzakirə predmetinin blokadada olan nəqliyyat xətlərinin açılması olacağını gözləyir:** "Overçuk dedi ki, "Tramp yolu" Ermənistanın xeyrinədirsə, Rusiya bunu dəstəkləyə bilər. Amma bu mövqe süni idi və Moskva Zəngəzur dəhlizinə nəzarəti itirməsindən qəzəblidir. Amma razılaşma Vaşinqtonla İrəvan arasında olub, Rusiya bunun üçün bizi yox, Ermənistanı sıxışdırmalıdır. Çünki Bakıya fərq etmir ki, dəhliz hansı tərəfin nəzarəti altında açılır, bizə lazım olan Naxçıvana quru yolun maneəsiz təmin edilməsidir. Sadəcə, Rusiya bu prosesdə Azərbaycanın iştirakı olduğunu düşünür və bizə təzyiq göstərməyə çalışır. Rusiya çox istərdi ki, Azərbaycan Zəngəzur dəhlizini güc tətbiq edərək açmağa məcbur etsin, sonra Federal Təhlükəsizlik Xidməti bölgəyə yerləşib nəzarəti təmin etsin, bununla üçtərəfli sənədin 9-cu bəndinin yerinə yetirildiyi deyilsin. Azərbaycan əsla bu varianta getməzdi. Odur ki, "yumşaq güc" diplomatiyamız Vaşinqtonda qələbə qazandı və konstruktiv anlaşma çərçivəsində koridorun "Tramp marşrutu" adı ilə açılmasına razılıq verildi. O səbəbdən, Overçukun iştirakı ilə keçiriləcək danışıqlarda nəqliyyat kommunikasiyalarının açılmasına dair Rusiyanın xeyrinə dəyişiklik gözləmirəm".

**Siyasi ekspert Ramiyə Məmmədova** Azərbaycanın şimal qonşusu ilə əlaqələrinin pozulmasında maraqlı olmadığını müşahidə edir. Onun sözlərinə görə, qarşı tərəfin cinayətləri bu münasibətlərə zərbə vurub: "Rusiya açıq şəkildə bizə hədə-qorxu gəlir. Azərbaycanın isə tələbləri dəfələrlə açıqlanıb və prezidentin ABŞ-də verdiyi müsahibədə bir daha dilə gətirilib. Bizim isə Kreml qarşısında hər hansı öhdəliyimiz yoxdur. Yəni Rusiya bizə hansı tələbi irəli sürür ki, yerinə yetirmirik? Amma bizim tələblərimiz var. Bu məsələdə ilk addımı Rusiya atmalıdır və gərginliyə son qoymalıdır".

**Ekspertin fikrincə, əgər Azərbaycanı itirmək istəmirsə, Cənubi Qafqazdakı layihələrdə iştirakı arzulayırsa, Türkiyə ilə münasibətlərə zərər vurmaq niyyəti yoxdursa, ağlını başına toplamalı və Bakı ilə bərabərhüquqlu qaydada dialoq qurmalıdır:** "Sən oradan Ukraynadakı obyektlərimizi bombala, propoqanda komandası dilə dil uzatsın, terrorla hədələsin, buradan da Overçuk Şahin Mustafayevi gözləsin... Belə siyasət olmur. Rusiya, nəhayət, anlamalıdır ki, qonşuları ilə hansı tonda və necə danışmalıdır. Bu üslub isə həmişə qonşularının ondan uzaqlaşmasına və okeanın o tayında, yaxud Avropada nicat axtarmasına səbəb olacaq".

❑ **Emìl SALAMOĞLU,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 146 (8756) 20 avqust 2025



# Rusiya ağlını itirir - Bakıya qarşı artan düşmənçilik

## Moskva Azərbaycanla münasibətlərdəki böhranı nizamlamaq yerinə vəziyyəti daha da gərginləşdirən hərəkətlərə yol verməklə nə demək istəyir və gözləntisi nələrdir?

**Rusiya-Azərbaycan münasibətləri son həftələrdə SOCAR-ın neft bazasına və orada yerləşən kompressor stansiyasına hücumundan sonra daha da gərginləşib. "Yeni Müsavat" yada salır ki, üç il yarım davam edən müharibədə SOCAR-a məxsus infrastruktura heç vaxt hücum olmayıb. Deməli, Rusiya Azərbaycanla münasibətlər korlandıqdan sonra SOCAR-ın infrastrukturunu qəsdən atəşə tutur.**

Zərbələr nəticəsində 17 ədəd yanacaq çəni, nasosxana binası, operator və texniki otaqlar, eləcə də çəki məntəqələri zədələnib, ərazinin hasarı dağıdılıb. Neft bazasının ümumi tutumu 16 min kubmetrdən çoxdur.

Ukrayna Prezidenti Volodimir Zelenski də SOCAR-a məxsus neft bazasına hücuma münasibət bildirib. O, hücumun Rusiya tərəfindən məqsədli şəkildə həyata keçirildiyini deyib. "Rusiya tərəfindən Odessada Azərbaycan şirkətinə məxsus enerji obyektinə qəsdən hücum olub. Bu, bizim münasibətlərimizə və enerji müstəqilliyimizə hücumdur", - Zelenski qeyd edib.

Ukrayna lideri Rusiyanın məqsədyönlü olaraq mülki şəxsləri və infrastrukturları hədəfə aldığını bildirib. ATƏT PA Prezidenti Pere Joan Pons və Komitə sədri Azay Quliyev isə birgə bəyanat yayaraq Rusiyanın SOCAR-a hücumunu qəti şəkildə pisləyib. Həmçinin Milli Məclisin sədri Sahibə Qafarova ilə Ukrayna Ali Radasının sədri Ruslan Stefançuk arasında telefon danışığı baş tutub. Telefon söhbətində ukraynalı spiker də bu hücumu pisləyib.

Görünən odur ki, Rusiya getdikcə ağlını itirir və Azərbaycana qarşı düşmənçilik, bu ölkədə yaşayan azərbaycanlılara münasibətdə dini və milli ayrı-seçkilik siyasəti yürütməyə başlayıb. Çünki enerji obyektlərimizə hücumlarla yanaşı, Rusiyadakı diasporumuz da hədəfə alınıb. Son olaraq Çelyabinsk vilayətində Azərbaycan diasporunun rəhbəri Ərşad Xankişiyev Rusiya vətəndaşlığından məhrum edilib. FTX-nin qərarı ilə onun Rusiya pasportu ləğv olunub və ölkəyə girişinə qadağa qoyulub.

Bəs bu cür münasibət daha nə qədər davam edəcək? Rusiya Azərbaycanla münasibətlərdəki böhranı nizamlamaq yerinə vəziyyəti daha da gərginləşdirən hərəkətlərə yol verməklə nə demək istəyir və gözləntisi nələrdir?

**Analitik Elxan Şahinoğlu** hesab edir ki, Rusiya Azərbaycan Dövlət Neft Şirkətinin Ukraynadakı yanacaq mərkəzlərini qəsdən hədəf seçib. Onun fikrincə, Kreml Azərbaycanla Ukrayna arasında enerji əməkdaşlığından narahatdır, bunu əngəlləməyə çalışır. Bununla belə, politoloqa görə, SOCAR-ın Ukraynadakı yanacaq mərkəzlərinin hədəf alınmasının Kreml üçün əks-effekti olacaq: "Azərbaycan Kremlin bu şantajı qarşılığında Ukrayna ilə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirəcək. Təsadüfi deyil ki, Rusiya Odessada SOCAR-ın yanacaq mərkəzini birinci dəfə raketlə vurduqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev ukraynalı həmkarı Zelenski ilə telefonla danışaraq Ukraynaya əlavə olaraq 2 milyon dollar yardım ayırdığını bildirdi. Bu vəsait hesabına Azərbaycandan Ukraynaya elektrik transformatorları göndərildi. Rəsmi Bakı Kremli xəbərdar etmişdi ki, Rusiya növbəti dəfə də SOCAR-ın Ukraynadakı yanacaq mərkəzlərinə zərbə endirsə, Azərbaycan Ukraynaya silah və hərbi texnika yardımına qoyduğu embarqonu ortadan qaldıra bilər. Kreml rəsmi Bakının xəbərdarlığını nəzərə almayaraq SOCAR-ın yanacaq mərkəzinə yenə zərbə endirmək qərarını veribsə, Azərbaycan Ukrayna ilə hərbi sahədə də əməkdaşlıq mövzusunu müzakirəyə çıxara bilər".

**Onun dediyinə görə, Rusiyanın SOCAR-ın Ukraynadakı yanacaq mərkəzlərinə vurduğu raket zərbələri Azərbaycanla münasibətlərin normallaşması imkanlarını heçə endirir, tam əksinə, gərginlik daha da artır:** "Demək, Kreml Azərbaycanla münasibətlərin normallaşmasında maraqlı deyil".

**Hüquqşünas Qulamhüseyn Əlibəyli** isə hesab edir ki, son vaxtlar Rusiya ilə Azərbaycan arasındakı münasibətlərdə yaranan gərginliyin davam etməsi və bir sıra Moskva rəsmilərinin, Kremlin nəzarəti altında olan medianın sistemli şəkildə Azərbaycana münasibətdə təcavüzkar xarakterli fikirlər səsləndirməsi Rusiya hakimiyyətinin müəyyən təxribatlar törətmək niyyətindən xəbər verir: "Azərbaycana raket zərbələri endirmək, Ukraynada olduğu kimi Cənubi Qafqazda da "xüsusi hərbi əməliyyatlar" keçirmək, Ermənistandakı 102-ci hərbi bazaya əlavə hərbi hissələr və silahlar gətirilməsi barədə məlumatlar, Azərbaycanda ləzgi və talış separatizmini qızışdırmaq üçün cəhdlər dediklərimizi təsdiq edir".

**Q.Əlibəylinin sözlərinə görə, SSRİ dağılandan sonra yeni müstəqil dövlətləri Rusiyanın təsir məkanında saxlamaq üçün müxtəlif üsullardan istifadə olunur:** "Müstəqil Dövlətlər Birliyi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi qurumların yaradılması da məhz bu məqsədə xidmət edirdi. Hazırda həmin qurumlar Rusiyanın istəklərinə uyğun fəaliyyət göstərə bilmədikləri üçün Moskva postsovet məkanında açıq hərbi təhdidlərə keçir, Gürcüstan və Ukraynada olduğu kimi birbaşa hərbi müdaxiləyə başlamaq niyyətini gizlətmir. Ona görə də Cənubi Qafqazda, xüsusən də Azərbaycanda Rusiyanın hansı təxribatlar törədə biləcəyi məsələsi diqqəti cəlb edir".

**Mütəxəssisin fikrincə, Gürcüstan və Ermənistandan fərqli olaraq Azərbaycana münasibətdə Rusiyanın təsir imkanları faktiki olaraq yox dərəcəsindədir:** "Azərbaycanda Rusiyanın hərbi hissələri yoxdur, erməni separatizminin kökü kəsilib, ləzgi separatizminin qarşısı alınıb, ayrı-ayrı şəxslərin talış separatizmini yaratmaq istəkləri olsa da, onların fəaliyyəti ciddi şəkildə məhdudlaşdırılıb, ümumiyyətlə, separatizm əhval-ruhiyyəsi ləzgi və talış xalqları arasında geniş yayılmayıb. Azərbaycanın radikal müxalifətinin də ayrı-ayrı rus siyasətçiləri ilə müxtəlif səviyyəli əlaqələri olsa da bütövlükdə rusiyayönümlü deyil, daha çox Qərbə meyllidir. Azərbaycan iqtisadiyyatına, kommunikasiya xətlərinə də Rusiyanın təsir rıçaqları yox dərəcəsindədir. Bir neçə gün bundan əvvəl Vaşinqtonda imzalanmış sənədlər, paraflanmış saziş layihəsi Rusiyanın faktiki olaraq regiondan çıxarılması anlamına gəlir".

**Ona görə də Q.Əlibəyli hesab edir ki, bu gün Azərbaycana qarşı Rusiya hakimiyyətinin əlində olan yeganə təsir rıçağı orada yaşayan və işləyən həmvətənlərimizdir. Onun fikrincə, Rusiyanın Azərbaycana hərbi müdaxiləsinə çağırışlar mənasız hay-küydən, hədə-qorxu gəlməkdən başqa bir şey deyil**: "Ukrayna bataqlığından çıxa bilməyən Rusiyanın döyüş taktikası dərsliklərə salınmış Azərbaycan Ordusu ilə ikinci cəbhə açması, ölkəmizin strateji müttəfiqləri olan NATO üzvü Türkiyə ilə, eləcə də Pakistanla, bütövlükdə Türk dünyası ilə hərbi qarşıdurmaya getməsi intihar kimi bir şey olardı. Rusiyanın siyasətində sağlam məntiq axtarmaq düzgün olmasa da, gec-tez Azərbaycanın bölgədə artan nüfuzu ilə, müstəqil siyasət yeritməsi ilə barışmaq məcburiyyətindədir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Putin-Zelenski görüşünə hazırlıqlar




## Rusiya Ukraynanın nə qədər ərazisini işğal edib?

**"Hər kəs Rusiya və Ukrayna arasında sülh əldə olunmasının mümkünlüyünə çox sevinir. Görüşlərdən sonra mən prezident Putinə zəng vurdum və təyin olunan yerdə prezident Putinlə prezident Zelenski arasında görüş üçün hazırlıqlara başladım. Bu toplantıdan sonra üçtərəfli görüş keçirəcəyik". Bunu ABŞ Prezidenti Tramp sosial şəbəkədə yazıb.**

Açıq mənbə nəşrləri bildirir ki, hazırda Rusiya Ukrayna ərazisinin 19 faizini işğal altında saxlayır.

Belə ki, Ukraynanın ümumi ərazisi 603 min kv. km-dir, Rusiya bu ərazinin təxminən 114 min 500 kv. km-nə nəzarət edir.

Bu sahəyə Krım, eləcə də ölkənin şərq və cənub-şərqindəki geniş ərazilər daxildir. Ukrayna isə beynəlxalq səviyyədə tanınmış Rusiya ərazilərinə nəzarət etmir.

Moskva 1991-ci ildə SSRİ dağılanda beynəlxalq səviyyədə Ukraynanın tərkib hissəsi kimi tanınan Krım, Donetsk, Luqansk, Zaporojye və Xerson vilayətlərini Rusiya Federasiyasının subyektləri hesab edir. Kiyev isə işğalı heç vaxt tanımayacağını bildirir. Əksər ölkələr Ukraynanın mövqeyini dəstəkləyir. Krımı Rusiya ərazisi kimi tanıyan azsaylı ölkələr sırasında Suriya, Şimali Koreya və Nikaraqua var. BMT Baş Assambleyası 2014-cü ildə Krımın ilhaqını qanunsuz elan edən qətnamə qəbul edib.

Krım - Rusiya 2014-cü ildə yarımadanı ələ keçirərək mübahisəli referendumdan sonra ilhaq edib. Sahəsi təxminən 27 min kv. km. Krım XVIII əsrdə II Yekaterina dövründə Rusiya imperiyasına qatılıb, 1954-cü ildə Nikita Xruşşov tərəfindən Ukraynaya verilib. Moskva Krımı hüquqi olaraq öz ərazisi hesab edir. Ukrayna və tərəfdaşları isə onun öz torpağı olduğunu bildirir, lakin bəzi rəsmilər hərbi yolla geri qaytarmağın çox çətin olduğunu etiraf edir.

Donbas - Rusiya Donetsk və Luqansk vilayətlərindən ibarət bölgənin təxminən 46 min 570 kv. km-nə, yəni 88 faizinə nəzarət edir. Buraya bütün Luqansk vilayəti və Donetsk vilayətinin təxminən 75 faizi daxildir. Ukrayna hazırda bölgənin 6 min 600 kv. km sahəsini əlində saxlayır. Rusiya əsas hücumlarını Donetsk istiqamətində davam etdirir. Donbasda Rusiya tərəfindən dəstəklənən separatçılar 2014-cü ildə müstəqillik elan edib, 2022-ci ildə isə Vladimir Putin onları "müstəqil dövlətlər" kimi tanıyıb.

Zaporojye və Xerson - Rusiya bu iki vilayətin təxminən 74 faizinə, yəni 41 min 176 kv. km əraziyə nəzarət edir. Ukrayna isə burada təxminən 14 min 500 kv. km sahəyə sahibdir. 2024-cü ildə Putin Ukraynanın Rusiya tərəfindən iddia edilən, lakin tam nəzarətə götürülməmiş 21 min kv. km-lik ərazidən çıxması və NATO-ya üzvlük planlarından imtina etməsi şərtilə sülhə razı ola biləcəyini bildirib.

Digər ərazilər - Rusiya Xarkov, Sumı, Nikolayev və Dnepropetrovsk vilayətlərində kiçik ərazilərə nəzarət edir. Sumı və Xarkovda ümumi nəzarət sahəsi təxminən 400 kv. km-dir. Dnepropetrovskda isə sərhəd yaxınlığında kiçik bir ərazi işğal edilib. Moskva Sumıda "təhlükəsizlik bufer zonası" yaratdığını iddia edir.

YENİ MÜSAVAT
N 146 (8756) 20 avqust 2025

# Ölkəmizdə uşaq ölümləri ilə bağlı qorxunc statistika

## Vaqif Qarayev: “Valideynlər tibdən uzaq məsləhətlərə inanır, bu, cahillikdir”

**Ölkəmizdə uşaq ölümləri uzun illərdir ki, ciddi ictimai narahatlıq doğurur. 2024-cü il üzrə statistik göstəricilər də bu tendensiyanı təsdiqləyir: ölkədə 549 körpə ölü doğulub, 2 519 uşaq isə 1 yaşına çatmadan həyatını itirib. Bu uşaqlardan 1 449-u oğlan, 1 070-i isə qızdır. Qeyd edək ki, 7 günədək ömür sürən körpələrin sayı 770-dir. Eyni zamanda 1 yaşadək ölən uşaqların sayı 1 420 olub ki, bunun 751-i şəhər, 669-u isə kənd yerlərində qeydə alınıb. Beş yaşadək uşaq ölümlərinin sayı isə 1 745-dir (981 oğlan, 764 qız).**

BMT-nin Qurumlararası Qrupu (UNICEF, ÜST, Dünya Bankı, Əhali Fondu və s.) tərəfindən açıqlanan statistikaya görə, Azərbaycanda 5 yaşadək uşaq ölüm göstəricisi hər 1 000 diri doğulan uşağa 19 təşkil edir. Bu, Azərbaycanı Avropa və qonşu ölkələr arasında ən yüksək göstəriciyə malik ölkə kimi təqdim edir. Müqayisə üçün digər ölkələr: Moldova - 15, Türkiyə - 13, Ermənistan - 10, Gürcüstan - 9, Albaniya - 9, Ukrayna - 8, Rumıniya - 7, Bolqarıstan - 6, Rusiya - 5 və sairə.

Bu göstəricilər Azərbaycanın uşaq sağlığı sahəsində hələ də ciddi problemlərlə üzləşdiyini açıq şəkildə göstərir.

Uşaq ölümləri xüsusilə perinatal dövrdə, yəni doğuşdan əvvəl və doğuşdan sonrakı ilk 7 gün ərzində baş verir. Bu dövr ölkənin səhiyyə sisteminin, sosial rifahının və ictimai sağlamlıq şəraitinin əsas göstəricilərindən biridir.

Yenidoğulmuş dövründə əsas səbəblərdən biri vaxtından əvvəl doğuş (preterm) olur. Bu halda körpənin orqanları tam inkişaf etmədiyi üçün həyati funksiyalar, xüsusilə tənəffüs və sinir sistemi zəif olur.



Doğuş zamanı ağırlaşmalar da əsas səbəblər sırasındadır. Oksigen çatışmazlığı (asfiksiya), çətin və travmatik doğuşlar uşaq ölümlərinə səbəb ola bilər.

Anadangəlmə qüsurlar, o cümlədən ürək, beyin, sinir sistemi və digər orqanlarla bağlı ciddi qüsurlar risk faktorudur.

Ana sağlamlığı ilə bağlı problemlər də o cümlədən, yüksək qan təzyiqi, şəkərli diabet, infeksiyalar (zika, sifilis, QİÇS, COVİD-19 və s.) körpəyə təsir göstərir.

Erkən və riskli hamiləliklər də neonatal ölümlərin riskini artırır. Bundan başqa, hamiləlik dövründə müayinələrin gecikməsi uşaq sağlamlığına mənfi təsir edir.

Mövzu ilə bağlı **pediatr Vaqif Qarayev** “Yeni Müsavat”a danışıb. Pediatr qeyd olunan statistikanın qorxunc olduğunu vurğulayıb: “Dünyada erkən uşaq ölümü, yəni 1 yaşına qədər uşaq ölümü ciddi nəzarət altındadır. Əgər ölüm faizi yüksəkdirsə, bu, həm ölkənin səhiyyə sistemi üçün, həm də sanitar-mədəniyyət səviyyəsi baxımından mənfi göstəricidir. Bu rəqəmlər bütün dünyada izlənilir. Amma sizin təqdim etdiyiniz statistikaya baxanda cavab verməkdə çətinlik çəkirəm: nə baş verib, hansı epidemiya olub ki, bu rəqəm birdən 19-a çatıb? Son illərdə bu rəqəmlər orta statistik dünya göstəricilərinə uyğun idi, amma birdən belə sıçrayışın səbəbini izah etmək çətindir”.

**Pediatr qeyd edib ki, südəmər yaşında, yəni 1 yaşa qədər olan uşaqlar xəstəliklərə həddindən artıq meyllidirlər, çünki müqavimət göstərmək imkanları yoxdur**: “Orqanizm infeksiyalara qarşı öyrəşməyib. Yoluxsa belə, vəziyyətdən tez çıxmaq çətin olur. Bu səbəbdən 1 yaşa qədər uşaqlar həmişə ciddi nəzarət altında olmalıdır. Sahə həkimi tərəfindən hər ay fiziki və psixoloji inkişaf göstəriciləri yoxlanmalı, qidalanma ilə bağlı tövsiyələr verilməlidir. Bu bütün dünyada belədir.

Nə etmək lazımdır? Səhiyyə xidməti tərəfindən poliklinikada sahə həkimi 1 yaşa qədər uşaqları ciddi nəzarətdə saxlamalıdır, həmçinin sahə tibb bacısı da rol oynayır. Əvvəllər sovet dövründə telefon və digər əlaqə vasitələri olmadığı üçün tibb bacısı mütləq evlərə gedərək uşaqları yoxlayırdı, xoşuna gəlməyən hər hansı vəziyyət olduqda isə mütləq həkimə müraciət edilirdi. İndi mobil telefonlar var, buna görə bir çox tibb bacısı evə getmir, yalnız telefon vasitəsilə əlaqə saxlayır, sahə həkimləri də belə edir. Əlbəttə, bunu bütün tibb bacılarına və sahə həkimlərinə aid etmək olmaz".

**Vaqif Qarayev valideynlərə öz tövsiyələrini də qeyd edib:** “Bəzən tibbi forumlarda müzakirələri izləyəndə dəhşətə gəlirəm. Məsələn, bir valideyn yazır ki, uşağımda qızdırma və ya digər narahatlıqlar var, nə etməliyəm? Ardınca birdən 50 rəy oxuyursan ki, tibdən uzaq şəxslər müxtəlif məsləhətlər verir. Həkimləri də anlayıram: bəzən abırlarına qısılıb rəy vermirlər, çünki hamı deyir ki, həkimə inanma, dərman boş şeydir. Bu, açıq-aydın cahillikdir. Unutmaq olmaz ki, 5 yaşında uşaq qızdırmaya dözümlü ola bilər, amma 3 aylıq və ya 2 aylıq uşaq üçün 3 gün ard-arda qızdırma ciddi təhlükədir. Vaxtında müdaxilə olunmasa, ağır fəsadlar və hətta ölüm riski var. Ona görə də mütləq şəkildə həkimə müraciət etmək lazımdır”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Nikahdankənar doğulanlar artır

## Ekspert: “Nikah bağlanmırsa, ailə sayılmasın”

**2024-cü ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların ümumi sayı məlum olub. Modern.az saytının Dövlət Statistika Komitəsindən əldə etdiyi məlumata görə, 2024-cü ildə Azərbaycanda 13228 uşaq nikahdankənar dünyaya gəlib. Onlardan 5158-i şəhər yerində, 8070-i kənd yerində doğulub.**



Müqayisə üçün qeyd edək ki, son illər nikahdankənar doğulan uşaqların sayında azalma baş verib. Belə ki, 2023-cü ildə 15622, 2022-ci ildə isə 18814 belə uşaq doğulmuşdu.

Lakin yenə də bu statistika göstərir ki, belə hallar az deyil. Son illərdə ata kultunun zəifləməsi və tək anaların sayının artması bu tendensiyanı gücləndirən faktorlardandır. Cəmiyyətdə atasız böyüyən uşaqların sayı artdıqca, nikahdan kənar doğumların da çoxaldığı müşahidə edilir.

Bu sosial problemin həlli üçün hüquqi və maarifləndirici tədbirlərin görülməsi vacibdir. Erkən nikahların qarşısının alınması, ailə qurmaq istəyən cütlüklərə sənədləşmə ilə bağlı dəstəyin artırılması və gənclərin məlumatlandırılması bu sahədə mühüm addımlar ola bilər. Nikahın rəsmi qeydiyyatı həm uşaqların hüquqlarını qoruyur, həm də ailə institutunun möhkəmlənməsinə xidmət edir. Gələcək nəsillərin rifahı naminə cəmiyyətin bu məsələyə daha məsuliyyətli yanaşması və hüquqi çərçivələrin gücləndirilməsi vacibdir.

Qeyd edək ki, bu məsələdən ən çox uşaqlar və analar problemlərlə qarşılaşa bilir. Məsələn, ata hüquqlarının qeydə alınmaması, miras və digər hüquqi öhdəliklərin müəyyən edilməməsi analar üçün əlavə hüquqi çətinliklər yaradır. Uşağın doğum sənədlərində valideyn məlumatının düzgün qeyd edilməməsi anaları problemlərlə üzləşdirir.

Bundan başqa, nikahdankənar doğum edən analar çox vaxt uşağın tərbiyəsi və gündəlik ehtiyaclarını təkbaşına qarşılamağa məcbur olurlar. Ata tərəfindən maddi dəstək alınmaması anaların iqtisadi vəziyyətini çətinləşdirir. Sosial yardımların və dövlət dəstəyinin məhdudluğu, xüsusilə kənd və bölgələrdə, vəziyyəti daha da mürəkkəbləşdirir.

Bəs bu yöndə hansı hüquqi və maarifləndirici işlər görülməlidir ki, belə hallara son qoyulsun? Cəzalar, sərt qərarlar mümkündürmü?

Mövzu ilə bağlı **sosioloq Üzeyir Şəfiyev** “Yeni Müsavat”a danışıb. Sosioloqun fikrincə, nikahın yalnız könüllü, yəni şəxsi qərara əsaslanan bir proses kimi qalması ailə institutunun güclənməsinə kifayət etmir: “Məlum olduğu kimi, ölkəmizdə nikah könüllü xarakter daşıyır. Fikrimcə, daha doğru olardı ki, nikah inzibati xarakter daşısın. Yəni nikah müqaviləsi bağlanmayan ailə, ailə hesab edilməsin. Çünki nikah müqaviləsi yalnız qarşılıqlı öhdəlik yaratmaqla kifayətlənmir, həm də fərdlərin məsuliyyətini artırır. Müqavilədə ailə həyatının müəyyən şərtləri öz əksini tapır və boşanma zamanı bir çox məsələlərin həlli də bu müqavilə əsasında daha asan olur, mübahisələrin qarşısı alınır. Ona görə də hesab edirəm ki, ölkəmizdə nikah müqaviləsi məcburi xarakter daşımalıdır”.

**Sosialoloq bildirib ki, nikahdankənar doğulan uşaqların sayı xüsusilə rayon və bölgələrdə artmaqdadır:** “Çünki insanlar bir-birini yaxından tanıdıqları, qohum olduqları və etibar etdikləri üçün çox vaxt rəsmi nikaha ehtiyac duymurlar, yalnız dini kəbinlə kifayətlənirlər. Halbuki qanunvericiliyə əsasən, rəsmi nikah olmadan dini kəbin kəsən din xadimləri hüquqi məsuliyyət daşıyırlar. Bu səbəbdən, mövcud qanunun icrasına ciddi nəzarət olunmalıdır. Yerli icra strukturları ailə quran cütlüklərə əvvəlcədən izah etməlidirlər ki, rəsmi nikah olmadan dini kəbin bağlamaq qadağandır.

Bundan əlavə, məlum olduğu kimi, 1 iyul 2025-ci ildən etibarən yaxın qohumlar arasında evliliyi qadağan edən qanun qüvvəyə minib. Təəssüf ki, hüquqi məlumatı zəif olan bəzi insanlar bu məhdudiyyət səbəbilə ya yalnız dini kəbinə, ya da vətəndaş nikahına üstünlük verirlər. Bu isə nikahdankənar doğulan uşaqların sayının artmasına gətirib çıxara bilər. Bunun qarşısını almaq üçün nikahın inzibati qaydada məcburi olması vacibdir. Bununla yanaşı, mətbuat vasitəsilə maarifləndirmə işləri aparılmalı, insanlara açıq şəkildə izah edilməlidir ki, nikah müqaviləsi bağlanmayan birliklər ailə hesab edilməyəcək.

Əminəm ki, bu addımlar atılarsa, nikahdankənar doğulan uşaqların sayında ciddi azalma müşahidə ediləcək. Eyni zamanda gələcəkdə onların sənədləşmə prosesində, o cümlədən məktəbə qəbul, rəsmi qeydiyyat və digər hallarda problemlər yaşanmayacaq, həmçinin boşanma zamanı əlavə hüquqi çətinliklərin qarşısı alınmış olacaq".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Tehranın yeni planı - Araz dəhlizi

## İran indi də başqa havaya girib; ekspertlər cənub qonşumuzun yenə uğursuz olacağını deyirlər

**"Zəngəzur dəhlizi məsələsi qarşısında İranın bir neçə seçimi var. Birincisi, sakitcə prosesi izləməli və müdaxilə etməməlidir. İkincisi isə bu prosesə qatılaraq proaktiv oyunçuya çevrilməlidir".**

Bu fikirlər İranın "Tasnim" agentliyinin dərc etdiyi məqalədəndir.

Agentlik İranın indiki mərhələdə Zəngəzur dəhlizinə alternativ marşrut təklif etməsini vacib hesab edir. Bunun üçün Zəngilandan keçərək Culfaya qədər uzanan Araz dəhlizini alternativ kimi təqdim edib. "İran Zəngəzur dəhlizinə alternativ kimi "Araz dəhlizi"ndən ciddi istifadə etməlidir. Qafqazda baş verən hadisələr, zahirən təhlükə kimi görünsə də, İranın tranzit diplomatiyasının canlanmasında dönüş nöqtəsi ola bilər. Əsas odur ki, cəld, ağıllı hərəkət etsin və Amerikanın təsirinə qarşı öz maraqlarını Çin və Rusiya kimi böyük dövlətlərlə uzlaşdırmaq üçün unikal fürsətdən istifadə etsin".

Qeyd edək ki, 2023-cü ilin oktyabrında Bakı və Tehran Azərbaycanı İran ərazisindən keçməklə Naxçıvana birləşdirən yeni marşrutun əsasını qoyub.

Araz dəhlizi kimi tanınan bu cəhd Cənubi Qafqazın geosiyasi mənzərəsində mühüm inkişafdır. Layihə İranın iqtisadi maraqlarına uyğundur və ikitərəfli ticarəti artırmaqla Azərbaycana maliyyə dividentləri təklif edir. Siyasi nöqteyi-nəzərdən marşrut İranın regionda təcrid olunmasından yayınır.

İslam Respublikası Araz dəhlizini Rusiya və Hindistanı İran vasitəsilə birləşdirən Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin (INSTC) mühüm elementi kimi də təqdim edir. Bu, Azərbaycanın yeni avtomobil və dəmir yolu xəttini Orta dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə əlaqələndirməkdə maraqlı olduğu bir vaxtdadır.

Amma ortada "Tramp yolu" razılaşması var, o zaman Araz dəhlizinin taleyi necə olacaq? Bu logistika də açılacaqmı, yoxsa arxa plana keçdi?

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov "Yeni Müsavat"da cənub qonşumuzun bu cür cəhdlərinin uğursuzluqla nəticələnəcəyini vurğuladı:** "Tramp yolunun açılması barədə Vaşinqtonda əldə olunan razılaşma İranı dilemma qarşısında qoyub. Ya bu dəhlizə mane olsun, yaxud da bu dəhlizin fəal iştirakçısına çevrilsin. Birinci hal Tehranın imkanları xaricindədir. Doğrudur, Ağ Evdə imzalanan sənədlərdən sonra Ali Dini Liderin müşaviri Vilayəti sərt bəyanatlarla çıxış etdi, hətta hərbi güc tətbiqi ilə hədələdi. Bütün bunlar heç nəyə yaramadı və yaramayacaqdı da. İranın Tramp yolundan istifadəsi isə Moskva ilə koordinasiyalı fəaliyyətinə xələl gətirə bilər. Eyni zamanda istədiyi imtiyazı, iştirakçılığı qazanmır. İranın Tramp yolu ilə bağlı narahatlığı da məhz imtiyaz əldə edə bilməməsi və Şimal-Cənub nəqliyyat dəhlizinin cəlbediciliyinin itirilməsidir.



Ona görə də İranın təqdim etdiyi Araz dəhlizi bəlkə də region ölkələri üçün işləyər, ancaq qlobal layihələrin ayrılmaz tərkib hissəsi ola bilməz. İranın bu cür cəhdləri də uğursuz nəticələnəcək".

İran Araz dəhlizi təklif edir. Ancaq bu dəhliz Zəngəzur dəhlizinə alternativ marşrut sayıla bilməz. Ən əsası ona görə ki, həm ABŞ, həm də Qərb İran üzərindən sanksiyaları qaldırmayıb və bu, cənub qonşumuzun beynəlxalq nəqliyyat kommunikasiya layihələrində və iqtisadi əlaqələrində iştirakında ciddi məhdudiyyətlər yaradır. Tramp yolunun açılmasında məqsədlərdən biri də məhz İran-Rusiya ortaq nəqliyyat dəhlizinin işinə mane olmaq, Çinin Ön Asiyadakı strateji və iqtisadi planlarının qarşısını almaqdır. Çinin 25 il ərzində İran iqtisadiyyatına 300 milyard yatırım qoyması barədə razılaşmaya, həmçinin Hindistanın yeni liman inşa etməsinə təbii ki, Birləşmiş Ştatlar və Qərb seyrçi qala bilməz. Nəzərə almaq lazımdır ki, Tramp yolu adlandırılan Zəngəzur dəhlizi təkcə Azərbaycanı Azərbaycanla (Naxçıvanla) birləşdirən dəhliz deyil, bu dəhliz Avropanı Asiya ilə bağlıyan mühüm bağdır. Bu bağ nəqliyyat kommunikasiya, ticari iqtisadi əlaqələri möhkəmləndirməklə yanaşı, həm də təhlükəsizliyə verilən əlavə təminatıdır. Bunu İranın əlinə, yaxud nəzarətinə vermək isə absurddur.

**"Cross Media" Təhlil Mərkəzinin analitiki, siyasi şərhçi Mübariz Göyüşlü Araz yolunun istifadəyə verilməsini olduqca vacib hesab edir:** "Zəngəzur dəhlizi, yaxud başqa adla desək, "Tramp dəhlizi" çox mühüm siyasi, ticari, nəqliyyat baxımından əhəmiyyəti olan bir nəhəng layihədir. Kimin nə deməsindən, etməsindən asılı olmayaraq da reallaşacaq.

O ki qaldı bu dəhliz açıldıqdan sonra Araz yolu, yaxud Gürcüstandan keçən, keçəcək ticarət-nəqliyyat layihələrinə, bunların mövcudluğu, məncə, hər hansısa maneçilik yaratmır. Araz yolunun istifadəyə verilməsi mümkündür və düşünürəm ki, hətta lazımdır. Azərbaycanla İran bu istiqamətdə çalışmalar həyata keçirməkdədir. Bu prosesi genişləndirmək, bu yol vasitəsilə də ticarət, nəqliyyat-logistika xidmətlərinin həyata keçirilməsi lazımdır. Əvvəla, bu yol iki dövlət arasında göstərilən sahədə əməkdaşlığı dərinləşdirəcək, bu yol vasitəsilə digər ölkələrin də bir-birinə bağlanması həyata keçirilə biləcək. Bunun mühüm tərəfi odur ki, ticarət, iqtisadi əlaqələr olduğu yerdə siyasi gərginliklərin, münaqişələrin yaranma ehtimalı azalır. Gərginlikdənsə belə layihələrin gerçəkləşdirilməsi vacibdir. Digər tərəfdən, Azərbaycanı dünyaya bağlayan, bizim ticarət-nəqliyyat əlaqələrimizi genişləndirən nə qədər çox layihə gerçəkləşərsə, işlək vəziyyətdə olarsa, bizim üçün müsbətdir. Çünki Ermənistanı bilmək olmur və olmayacaq da. Düşmənin bizə dost olmasından, bizimlə sıx nəqliyyat-ticarət və s. istiqamətdə əlaqələr qurmasından hər zaman ehtiyatlı, diqqətli olmalıyıq. Bu ermənidir. Bu gün Paşinyan hakimiyyətdən getsə, başqa birisi, radikal ideologiyalı siyasətçi gələrsə, o zaman Zəngəzur dəhlizinin taleyi sual altına düşə də bilər. Bizim hər zaman alternativlərimiz, əlavə imkanlarımız aktiv olmalıdır. O baxımdan, mən şəxsən Araz yolunun istifadəyə verilməsini nəinki mümkün, hətta vacib hesab edirəm.

İrandakı siyasi qüvvələr də Azərbaycana qarşı köklənməkdənsə, Zəngəzur dəhlizinə qarşı çıxmaqdansa, Araz yolunun baş tutmasına və işlək vəziyyətə gəlməsinə çalışarlarsa, daha faydalı nəticələr əldə oluna bilər. Bu yolun reallaşması da mümkündür və düşünürəm ki reallaşacaq da. Reallaşmağı da hər iki tərəfə faydalıdır".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İrəvandan Belarusa getdi

## Parlamentin deputatı İran Prezidentinə İsrail casusu dedi

**İran Prezidenti Məsud Pezeşkian Ermənistana rəsmi səfərə gəlib. İrəvanda keçirilən qəbul mərasimində Ermənistan baş naziri Nikol Paşinyan qonağı fars dilində salamlayıb və bu an protokol görüntülərinə xüsusi rəng qatıb. Daha sonra hərbi orkestrin iştirakı ilə rəsmi qarşılanma mərasimi baş tutub, ardınca liderlərin qapalı görüşü başlayıb. Ermənistan KİV-ləri məlumat yayıb. Qeyd olunur ki, danışıqlar təxminən 1,5 saat davam edib.**

Ermənistan baş nazirinin müavini Mher Qriqoryan İranın vitse-prezidenti Həmid Purməhəmmədini qəbul edib.

Qriqoryan bu görüşü qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün yaxşı fürsət hesab edib və İran Prezidenti Məsud Pezeşkianın başçılıq etdiyi nümayəndə heyətinin Ermənistana rəsmi səfərini yüksək qiymətləndirib.

Görüş zamanı Ermənistan-İran ikitərəfli münasibətlərinin gündəliyinə dair məsələlər və regional hadisələr müzakirə edilib. Hər iki tərəf ölkələrin ərazi bütövlüyü, suverenliyi, yurisdiksiyası və qarşılıqlılıq prinsiplərinə tam hörmət çərçivəsində regional kommunikasiyaların (və ya nəqliyyat dəhlizlərinin) açılmasının vacibliyini vurğulayıb.

Qriqoryan Ermənistanın İranla əlaqələri inkişaf etdirməyə hazır olduğunu bir daha təsdiqləyib, ticari-iqtisadi sahədə böyük potensialı vurğulayıb. İşçi qruplar formatında bir sıra mühüm məsələlər üzrə müzakirələrin təşkili, onların daha səmərəli və konstruktiv həlləri ilə bağlı razılıq əldə olunub.

İran parlamentinin nümayəndəsi Kamran Qəzənfəri qalmaqallı açıqlaması ilə gündəmə gəlib. Deputat iddia edib ki, prezident Məsud Pezeşkianın İsraillə əlbir olduğunu sübut edən sənəd və dəlillər mövcuddur.

Qəzənfərinin sözlərinə görə, Pezeşkianın əsas məqsədi "İranı zəiflətmək və məhvə aparmaq, eyni zamanda İsrailin süqutunun qarşısını almaqdır". Bu fikirlər ölkənin siyasi dairələrində və mediada geniş rezonans doğurub.

Məsələ ilə bağlı yayılan xəbərlərdə qeyd olunur ki, İran parlamentindəki mühafizəkar qanad Azərbaycan türkü olam Pezeşkianı uzun müddətdir hədəf alır və onu Qərblə, xüsusilə də ABŞ və İsraillə yaxınlaşmaqda ittiham edir. "İntelligence Online"un təhlillərində vurğulanır ki, bu cür iddialar hakimiyyət daxilində siyasi təzyiq vasitəsi kimi istifadə olunur.

Ekspertlər hesab edirlər ki, bu iddialar reallıqdan çox siyasi mübarizənin ritorikasına xidmət edir. Çünki Pezeşkianın prezidentliyi dövründə İranın daxili və xarici siyasətində ciddi ziddiyyətlər ortaya çıxıb, onun daha yumşaq xətt yürütməsi isə sərt xətt tərəfdarlarının etirazına səbəb olur.

Hazırda Tehranda bu ittihamların ətrafında ciddi siyasi qalmaqal davam edir və Pezeşkian tərəfdarları iddiaları əsassız və böhtan kimi dəyərləndirirlər.

Belarus KİV-lərinin məlumatına görə, bu gün Minskdə Belarus Prezidenti Aleksandr Lukaşenko ilə İran Prezidenti Məsud Pezeşkian arasında danışıqlar keçiriləcək.

Görüşdə ikitərəfli münasibətlərin inkişafı və regional məsələlərin müzakirə olunacağı gözlənilir.

YENİ MÜSAVAT
N 146 (8756) 20 avqust 2025



# “Azərbaycana məxsus obyektlərin vurulması bununla bağlıdır”

## Deputat Səməd Seyidov vacib detalları açıqladı

**Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov Teleqraf.az-ın suallarını cavablandırıb.**

Onunla müsahibəni təqdim edirik:

**- Səməd müəllim, Rusiya növbəti dəfə Ukrayna ərazisində Azərbaycanın enerji mənbələrini hədəf alıb. Sizcə, məqsəd nədir, Kreml bununla nə deməyə çalışır?**

- Rusiya-Ukrayna müharibəsi yeni bir mərhələyə keçib. Bu mərhələdə aktiv danışıqlar, diplomatiya, xüsusilə ABŞ Prezidenti Donald Trampın təşəbbüsləri və digər məsələlər gündəmdədir. Biz bu mövzuları da qeyd etməklə o mesajı verməyə çalışırıq ki, ümumi kontekstdə Rusiya-Ukrayna müharibəsinin hansısa formada həlli Avropada və dünyada yeni bir geosiyasi arxitekturanın yaradılması ilə bağlıdır. Bu arxitektura daxilində isə Azərbaycanın vacib və əhəmiyyətli rolu var. Hətta ötən gün Avropanın aparıcı ölkələrinin liderləri Trampın kabinetində Rusiya-Ukrayna müharibəsini müzakirə edərkən Amerika Prezidenti bir neçə gün öncə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın sülh istiqamətindəki danışıqlarını nümunə kimi təqdim etdi. Çünki bu gün Azərbaycanla Ermənistan arasında sülh istiqamətində atılan addımlar faktiki olaraq dünya üçün bir nümunə hesab edilir.

**- Bəs rəsmi Bakının sülh mövqeyi kimləri narahat edir?**

- Azərbaycanın sülh mövqeyi regiondakı ölkələr tərəfindən müxtəlif şəkildə qəbul edilir. Dünyada Cənubi Qafqazın və Azərbaycanın yeni rolu, Prezident İlham Əliyevin apardığı siyasətin əhəmiyyəti, çəkisi, sözsüz ki, müxtəlif dövlətlər tərəfindən fərqli qarşılanır. Regionda yerləşən xüsusilə böyük dövlətlərin narahatlığı məhz bununla bağlıdır.

**- Rusiya güc nümayişi ilə nəyə nail olmaq niyyətindədir?**

- Ukrayna ərazisindəki Azərbaycana məxsus enerji terminallarının Rusiya tərəfindən vurulması və ya buna oxşar digər məsələlər ölkəmizin artan rolunun yaratdığı reallığın, onun proseslərdə mövqeyinin qəbul edilib-edilməməsi ilə izah olunur. Bu, sözsüz ki, təkcə güc nümayişi deyil. Azərbaycanın tamamilə başqa bir müstəvidə mövcudluğu məhz bu cür yanaşmaların ortaya çıxması ilə müşahidə edilir. Ümumi şəkildə onu deyə bilərik ki, bu, çox mürəkkəb və çətin bir məsələdir.

# “Qazprom” Azərbaycanın qazanacağı layihədən imtina etdi

## Türkiyədə regional qaz habının yaradılması Bakının marağında olan layihə idi, amma...

**“Qazprom”un baş direktoru Aleksey Miller qaz qovşağı operatorunun idarəçiliyində 2/3 hissənin Ankaraya verilməsi təklifinə baxmayaraq, türk tərəfdaşların marağının az olmasını əsas gətirərək, Türkiyədə qaz qovşağı layihəsinin uğursuzluğunu etiraf edib.**

İnsayderlər Miller və Rusiyanın energetika naziri Sergey Tsivilevin layihənin işçi qruplarını ləğv etdiklərini bildirirlər. Layihə “ölü doğulmuş” elan edilib ki, bu da “Qazprom”un Avropa bazarında öz mövqeyini bərpa etmək üçün qapılarını bağlayır.

Rusiya büdcəsinin neft və qaz gəlirləri iyulda 27% (787,3 milyard rubl), yanvar-iyulda isə 18,5% (5,52 trilyon rubl) azalıb. Urals neftinin qiyməti 60,4 dollar/barelə bərabərdir. “Qazprom”un 2025-ci ilin birinci yarısında zərəri 10,7 milyard rubl, gəliri +4% (3,05 trilyon rubl) təşkil edir. Miller islahatlar vəd edərək postunu 2026-cı ilə qədər saxlayacaq.

Xatırladaq ki, 2022-ci ilin oktyabrında Putin Türkiyədə qaz habının yaradılmasını təklif edib, Ankaranın müsbət qarşıladığı təklifin layihə formasına gətirilməsi üçün işlər başlanıb. Türkiyə qanunvericiliyinə habın fəaliyyəti üçün zəruri olan dəyişikliklər edilib. Tərəflər arasında layihə ilə bağlı danışıqlar gərgin keçib. Bu barədə bir neçə ay əvvəl Qərb mətbuatında da məlumatlar yer almışdı. Bildirilirdi ki, Rusiya əsas təchizatçı imkanından istifadə etməklə qaz habında rəhbərliyə, baş nəzarətçi roluna iddialıdır. Türkiyə isə öz ərazisində yaradılacaq strateji əhəmiyyətli platformaya özü nəzarət və rəhbərlik etmək niyyətindədir. Bundan əlavə, tərəflər arasında ciddi müzakirə olunan daha bir məsələ kimi layihənin maliyyələşdirilməsi önə çəkilirdi. Rusiya rəhbərlik və nəzarət imkanı olmasa, layihənin icrasına vəsait yatırmaq istəmir, Türkiyə isə layihənin yükünü təkbaşına çəkmək imkanında deyil. Digər tərəfdən, Ankara mövcud infrastrukturun yaradılmasına (qaz anbarları, maye qaz terminalları, boru xətləri və sair) çəkdiyi xərcləri əsas gətirməklə layihədən ən çox qazanclı çıxacaq Rusiyanın maliyyələşmədə bərabər iştirakında təkid edirdi. Ekspertlərin hesablamalarına əsasən 2027-ci ilədək Türkiyədəki qaz habından Avropaya ildə 35,75 milyard kubmetr mavi yanacaq ötürmək mümkün olacaqdı. Aydındır ki, Azərbaycanın strateji müttəfiqi olan Türkiyədə regional qaz habının yaradılması Bakının marağında olan layihə idi. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan qazını Avropaya daşıyan Cənub Qaz Dəhlizi Türkiyə ərazisindən keçir, onda bu marağın kifayət qədər iqtisadi əsaslı olduğunu söyləmək mümkün idi.




Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Azər Badamov “Yeni Müsavat”a açıqlamasında **sanksiyalar səbəbindən bu gün Rusiyanın qazın və neftin ixracında çox da alternativlərə malik olmadığını söylədi:** “Rusiyanın Türkiyə qaz habı layihəsindən imtinasının əsasında ilk növbədə siyasi məqsədlərin dayandığını hesab edirəm. Bu layihə icra olunacağı təqdirdə Türkiyənin siyasi mövqeləri regionda daha da möhkəmlənir. Bu da Rusiyanın maraqlarına uyğun gəlmir. Xüsusilə son vaxtlar Rusiyanın Cənubi Qafqazdan yavaş-yavaş uzaqlaşması və Türkiyənin mövqelərinin möhkəmlənməsi Rusiyanın xoşuna gəlmir. Həm də Türkiyənin qaz habına çevrilməsi Rusiyanı qaz ixracında müəyyən qədər asılı edəcək. Çünki bu gün Rusiya Qərbin sanksiyaları altında olduğundan qazın və neftin ixracında çox da alternativlərə malik deyil. Türkiyə qaz habı layihəsi böyük maliyyə tutumludur. Bu layihənin icrası üçün böyük investisiyalar tələb edir. Layihəyə öz ərazisində icra olunduğuna görə Türkiyə özü rəhbərlik və nəzarət etmək istəyir. Amma Türkiyənin öz maliyyəsi ilə infrastruktur yaratmaq imkanı yoxdur. Türkiyə qaz habına qoyulacaq investisiyaları Rusiya ilə bərabər bölüşmək istəyir. Rusiya isə özünün rəhbəri olmadığı layihəyə investisiyalar yatırmaq istəmir və ona görə də layihəni uğursuz adlandırır. Layihə icra olunacağı təqdirdə Rusiya Avropaya ildə 35,8 milyard kub metr qaz ixrac edə biləcəkdi. Həm də bu layihə Rusiya üçün Avropaya qaz ixrac edə biləcək yeganə alternativ idi. Çünki Şimal axını layihəsində qəza baş verəndən sonra qazı ixracı üçün ən perspektivli layihə Türkiyə qaz habının yaradılması hesab olunurdu. Burada layihənin icra olunmasından Rusiyanın çəkinməsinə səbəb olan digər bir məsələ isə regionda Rusiyasız baş verən yeni reallıq olduğunu hesab edirəm. Son vaxtlar Azərbaycanla Rusiya arasında münasibətlər çox gərginləşib. Rusiyanın anti-Azərbaycan siyasətinə səssiz qalmayan Ankara Azərbaycana qarşı ehtimal olunan hər bir təzyiqə cavab verməyə hazır olduğunu bəyan etdi. Təbii ki, bu, Rusiyanın Azərbaycana qarşı olan siyasətinə Türkiyə ilə bir olduğumuzun nümayişi idi. Bu baxımdan Rusiya Türkiyəyə böyük investisiyaların yatırılmasından çəkinir və qaz habı layihəsini uğursuz adlandırır”.

**İqtisadçı-ekspert Günay Hüseynova bu layihənin uğursuzluğunu Rusiya iqtisadiyyatı üçün böyük itki hesab edir:** “Burada mövzunun əsas məğzi Rusiya və Türkiyə arasında olan layihənin uğursuzluqla nəticələnməsi və Azərbaycanın iqtisadi maraqlarına təsirinə ibarətdir. İlk növbədə, məsələyə Rusiya tərəfindən baxsaq layihənin uğursuz olması "Qazprom", həmçinin də Rusiya iqtisadiyyatı üçün böyük itki hesab olunur. Yanvar-iyul aylarındakı statistikasındakı göstəricilərdən də məlumdur ki, Rusiyanın neft və qaz gəlirlərində 18,5% azalma olub, "Qazprom" zərərlə işləyir. Bu layihə çərçivəsində Rusiya Avropada itirilmiş mövqeyini bərpa etməyə çalışsa da, həm gəlirlərinin azalması, həm də geosiyasi səbəblərdən, həmçinin Türkiyə qanunvericiliyinə uyğun olaraq layihədə dəyişiklik Moskvanı geri addım atmağa məcbur etdi.

Azərbaycan iqtisadiyyatı üçün təsir və ya eks-təsirlərə qaldıqda isə ölkəmiz üçün bu layihənin icra olunması, sadəcə, əlavə gəlir mənbəyi və Avropa ilə tərəfdaşlığın daha da möhkəmlənməsi kimi qiymətləndirilə bilər. Azərbaycan nefti onsuz da Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya ixrac olunur. Layihənin ləğvi əslində Azərbaycan üçün böyük bir fürsətdir. Avropada mövqelərinin gücləndirilməsi baxımdan iqtisadi səmərə təşkil edir. Əgər bu hub layihəsində Rusiya kənarda qalarsa, Türkiyə ilə Azərbaycan bu çərçivədə də etibarlı ticari tərəfdaşa çevrilə bilər. Layihənin uğursuz olması enerji qiymətlərinə də öz təsirini göstərəcək".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 146 (8756) 20 avqust 2025

**Xəbər verdiyimiz kimi, Bakıya turist kimi səfər edən əcnəbilər Şəhidlər Xiyabanında qeyri-etik videolar çəkərək sosial şəbəkələrdə paylaşıblar. Yayılan görüntülərdə ərəblər qəbuledilməz hərəkətlər ediblər. Artıq Şəhidlər Xiyabanında qeyri-etik videolar çəkən əcnəbilərə cinayət işi başlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 245-ci (Qəbir üzərində təhqiredici hərəkət) maddəsi ilə cinayət işi başlanıb. Polis əməkdaşları tərəfindən görülmüş tədbirlərlə hər 3 şəxs saxlanılaraq istintaqa cəlb edilib.**

# Ərəb turistlərin Bakıdakı qalmaqalları...

## "Şəhid yalnız ailənin övladı deyil, xalqın ümumi mülkiyyətidir" - yeni hüquqi mexanizm təklif olunur

**Vətən müharibəsi şəhidi, mayor Vüsal Vəliyevin qardaşı, ictimai fəal Elyar İslamoğlu** təklif edib ki, şəhid olmuş şəxslərin şərəf və ləyaqətinin qorunması ilə bağlı qanunvericiliyə maddə əlavə olunmalıdır: "Şəhid olmuş şəxslərin şərəf və ləyaqətinin qorunması ilə bağlı qanunvericilikdə xüsusi maddə yoxdur. Şəhidlərə qarşı təhqiramiz ifadələrə yol verənlərin qanunla cəzalandırılması məsələsi Milli Məclisin növbəti sessiyasında müzakirə edilib həllini tapmalı, bununla bağlı qanun qəbul edilməlidir. Şəhidə qarşı hörmətsizlik yolverilməzdir. Alnımızdan 30 illik ləkəni silən, ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olan insanı təhqir etməyin ciddi cəzası olmalıdır. Bununla bağlı qanunvericilikdə ayrıca maddə olmalı, xüsusi cəza müəyyən edilməlidir. Bütün şəhid ailələrinin adından təklif edirəm ki, Cinayət Məcəlləsinə şəhid olmuş şəxslərin şərəf və ləyaqətinin qorunması ilə bağlı xüsusi maddə əlavə edilsin".

Cinayət Məcəlləsinə belə bir maddənin əlavə edilməsi mümkündürmü?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** "Yeni Müsavat"a deyib ki, baş vermiş son hadisə haqlı olaraq ictimai hiddət doğurub. Eyni zamanda həm də hüquqi mexanizmlərin yetərsizliyini ortaya çıxıb: "Doğrudur, Cinayət Məcəlləsinin 245-ci maddəsində - qəbir üzərində təhqiredici hərəkətlər maddəsi ilə cinayət işi başlanıb. Lakin bu norma daha çox qəbiristanlıqlarda edilən hərəkətləri əhatə edir, şəhid anlayışını ayrıca hüquq-mühafizə obyekti kimi nəzərdə tutmur. Cinayət Məcəlləsinin 245-ci maddəsi yalnız qəbir üzərində edilən hərəkətləri tənzimləyir. Bu isə şəhidin adı, xatirəsi və ya sosial şəbəkədə onun ləyaqətini alçaldan ifadələrə aid deyil. İnzibati Xətalar Məcəlləsi şəhidlərə qarşı hörmətsizliyi ayrıca cinayət tərkibi kimi nəzərdə tutmur. Mülki qanunvericilik yalnız vətəndaşın şərəf və ləyaqətini müdafiə imkanları verir, lakin şəhid statusunun özünəməxsusluğu burada əksini tapmır".

**Natiq Ələsgərov deyib ki, bu baxımdan Cinayət Məcəlləsinə belə hərəkətlərlə bağlı təklif olunan yeni maddənin əlavə edilməsi başadüşüləndir:** "Yəni belə bir maddə Cinayət Məcəlləsinə əlavə olunsa, hüquqi boşluq aradan qalxacaq. Şəhidlərin şərəf və ləyaqəti ayrıca qorunan hüquqi dəyərə çevriləcək. Cəza mexanizmləri sərtləşəcək. Şəhidin adını təhqir edən, xatirəsini alçaldan hər kəs konkret cinayət məsuliyyəti daşıyacaq. İctimai-preventiv təsir güclənəcək. Belə maddənin mövcudluğu insanlarda məsuliyyət hissini artıracaq, sosial şəbəkələrdə məsuliyyətsiz davranışların qarşısını alacaq. Eyni zamanda dövlətin rəsmi mövqeyi güclənəcək. Qanunvericilik şəhid anlayışını, sadəcə, sosial dəyər kimi deyil, hüquqi dəyər kimi təsbit etmiş olacaq".

**Natiq Ələsgərov qeyd edib ki, şəhid anlayışı və hüquqi məzmunu da hər kəsə aydın olmalıdır:** "Azərbaycan qanunvericiliyinə görə, şəhid Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və dövlətin təhlükəsizliyi uğrunda həlak olan şəxsə verilən statusdur. Bu status Prezidentin sərəncamı ilə rəsmiləşir. Bu isə o deməkdir ki, şəhid yalnız bir ailənin övladı deyil, dövlətin və xalqın ümumi mülkiyyətidir. Onun adı, xatirəsi və məzarı dövlət mühafizəsi altındadır. Bu statusun hüquqi qorunması yalnız ailənin yox, həm də cəmiyyətin maraqlarını əks etdirir. Təbii ki, bunu əcnəbilərin bilməməsi mümkündür. Amma bilməmək məsuliyyətdən azad etmir. Əcnəbilərə bu məlumatlar turizm şirkətləri, ölkə haqda məlumatlarda əks etdirməklə çatdırmaq olar. Azərbaycana gələn əcnəbilər ölkə haqda məlumatlarla tanış olmalı, Azərbaycan qanunlarına riayət etməli, adət-ənənələrinə hörmət eləməlidirlər".

**Natiq Ələsgərov bildirib ki, Cinayət Məcəlləsinə ayrıca maddə əlavə edilməsi də mümkündür**: "Şəhidin adını, xatirəsini, şərəf və ləyaqətini alçaldan hərəkətlərin törədilməsi cərimə və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu əməllərin ictimai yerlərdə və ya kütləvi informasiya vasitələrində, o cümlədən sosial şəbəkələrdə törədilməsi daha ağır cəza ilə nəticələnir. Beləliklə, qanunvericiliyə ayrıca maddə əlavə edilməsi həm şəhidlərin müqəddəs adının hüquqi müstəvidə qorunmasına, həm də dövlət-cəmiyyət münasibətlərində daha güclü hüquqi təminatın formalaşmasına xidmət edəcək".



Yeri gəlmişkən, Azərbaycanda ərəb turistlərlə bağlı müzakirələr yenidən gündəmə gəlib. Bəlli hadisə fonunda sosial şəbəkələrdə müxtəlif mövqelər ortaya çıxıb. Bəzi istifadəçilər ərəb turistlərin davranışını kəskin tənqid edərək ümumiləşdirmələr aparıblar. Digərləri isə üç nəfərin hərəkətinə görə bütün ərəb ölkələrindən gələn insanlara qarşı nifrət və ittihamların doğru olmadığını bildiriblər.

Modern.az Dövlət Statistika Komitəsindən Azərbaycana gələn ərəb turistlər barədə məlumat əldə edib.

Məlumata görə, 2025-ci ilin ilk 6 ayında Azərbaycana ən çox ərəb turisti Səudiyyə Ərəbistanından gəlib. Bu müddətdə ölkəmizi 38 963 səudiyyəli ziyarət edib.

Digər ərəb ölkələrindən gələnlərin sayı isə belədir:

Birləşmiş Ərəb Əmirlikləri - 21 499 nəfər
Küveyt - 12 284 nəfər
Oman - 8 272 nəfər
Misir - 3 719 nəfər
İordaniya - 3 342 nəfər
İraq - 2 268 nəfər
Bəhreyn - 2 016 nəfər
Yəmən - 1 347 nəfər
Qətər - 1 228 nəfər
Suriya - 171 nəfər

Ümumilikdə, ərəb ölkələrindən Azərbaycana gələn turistlərin il ərzində ümumi sayı isə yüz minlərlə olur. Məsələn, təkcə ötən il ərzində Səudiyyə Ərəbistanından Azərbaycana 98 113 nəfər gəlib. Bu göstərici ərəb ölkələrinin Azərbaycan üçün turizm bazarında əhəmiyyətli rol oynadığını göstərir.

Ekspertlər bildirirlər ki, turizmdə belə hadisələr istisna deyil və hər bir ölkənin vətəndaşları arasında qaydaları pozan şəxslər ola bilər. Bu baxımdan konkret şəxslərin davranışına görə bütün xalqa qarşı nifrət formalaşdırmaq düzgün deyil. Digər tərəfdən, ictimai yerlərdə davranış qaydalarına riayət olunmasının vacibliyi, eləcə də turizm sektorunda etik maarifləndirmənin gücləndirilməsi məsələsi aktuallaşıb.

Dövlət Turizm Agentliyindən sorğumuza cavab olaraq bildirilib ki, qurum tərəfindən mütəmadi olaraq maarifləndirici təlim və görüşlərdə turizm şirkətləri və turizm bələdçilərinə ölkəyə gələn xarici vətəndaşlarına turistik məlumatlarla yanaşı, ölkə haqqında vacib məqamlar, o cümlədən milli-mənəvi dəyərlər, yerli qanunvericilik və ictimai davranış qaydalarına hörmətlə yanaşılmalı məqamlar haqqında da ətraflı informasiya vermək tövsiyə olunur.

❑ **E.MƏMMƏDƏLİYEV, Musavat.com**

## Əcnəbi turistləri Bakıda nə maraqlandırır?

**Xəbər verdiyimiz kimi, avqustun 17-də üç əcnəbi şəxs Şəhidlər xiyabanında nalayiq hərəkətlər etməklə çəkdikləri videogörüntünü sosial şəbəkələrdə paylaşıblar.**

Daxili İşlər Nazirliyindən bildirilib ki, faktla bağlı Cinayət Məcəlləsinin 245-ci (Qəbir üzərində təhqiredici hərəkət) maddəsi ilə cinayət işi başlanılıb.

Polis əməkdaşları tərəfindən görülmüş tədbirlərlə hər üç şəxs saxlanılaraq istintaqa cəlb edilib.

Hər üç şəxsin Səudiyyə Ərəbistanının vətəndaşları olduğu bildirilir.

Maraqlıdır, ölkəmizə gələn turistlərə qabaqcadan Şəhidlər Xiyabanı da daxil olmaqla, tarixi yer və abidələr barədə məlumatlar verilirmi?

Modern.az bununla bağlı Dövlət Turizm Agentliyinə müraciət edib. Agentliyin mətbuat katibi Gülnar Mustafayeva bildirib ki, Dövlət Turizm Agentliyi tərəfindən mütəmadi olaraq maarifləndirici təlim və görüşlərdə turizm şirkətləri və turizm bələdçilərinə ölkəyə gələn xarici vətəndaşlara turistik məlumatlarla yanaşı, ölkə haqqında vacib məqamlar, o cümlədən milli-mənəvi dəyərlər, yerli qanunvericilik və ictimai davranış qaydalarına hörmətlə yanaşılmalı məqamlar haqqında da ətraflı informasiya vermək tövsiyə olunur.

## Rusiyaya getməyin çağırışı

**Estoniya vətəndaşlarını Rusiyaya istənilən səfərdən çəkinməyə çağırıb.**

Modern.az xəbər verir ki, bu barədə ölkənin Xarici İşlər Nazirliyi məlumat yayıb.

"Xarici İşlər Nazirliyi Rusiyaya istənilən səfərdən çəkinməyi qətiyyətlə tövsiyə edir. Rusiyada müvəqqəti olan Estoniya vətəndaşlarına ölkədə qalma zərurəti barədə diqqətlə düşünmələri tövsiyə olunur. Xarici İşlər Nazirliyi həmçinin Estoniya vətəndaşlarına mümkün qədər tez Estoniyaya qayıtmağı tövsiyə edir", - qurumun saytında dərc edilmiş bəyanatda deyilir.

Dövlətçilik, tarix, mədəniyyət

YENİ MÜSAVAT

N 146 (8756) 20 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# İrəvan məscidləri - unudulmayan miras

## Azərbaycanın qədim şəhərlərindən biri olan İrəvan əsrlər boyu yalnız qala və sarayları ilə deyil, həm də çoxsaylı məscidləri ilə tanınıb

**Ermənistanda səfərdə olan İran Prezidenti Məsud Pezeşkian İrəvan şəhərində yerləşən qədim Azərbaycan tarixi-memarlıq abidəsi - "Göy" məscidi ziyarət edib. Prezident burada ibadət edib, namaz qılıb və bu müqəddəs məkanda dini mərasimdə iştirak edib. Məsud Pezeşkianın bu ziyarəti "Göy" məscidlə bağlı məsələni yenidən gündəmə gətirib.**




Xatırladaq ki, İrəvanda mövcud olan yeganə məscid - "Göy" məscid uzun illərdir ki, Ermənistan tərəfindən İran mədəniyyətinə aid edilərək dünyaya "fars məscidi" kimi təqdim olunur. Halbuki tarixi faktlar bunun əksini sübut edir.

"Göy" məscid 1766-cı ildə İrəvan xanı Hüseynəli xanın əmri ilə inşa olunub. Azərbaycanın memarlıq irsinin nadir nümunələrindən sayılan bu tikili öz monumental quruluşu ilə diqqət çəkir: məscidin eni 66 metr, uzunluğu isə 92,2 metrdir. O, həm də İrəvan məscidləri arasında ölçüsünə görə ən böyüyü olub.

Çar Rusiyası dövründə "Göy" məscid İrəvanda fəaliyyət göstərən 8 məsciddən biri idi və əsasən azərbaycanlıların ibadət yeri kimi tanınıb. Bu məkan uzun illər şəhərin dini-mədəni həyatının mərkəzlərindən biri olub.

Məscid 20-ci əsrdə iki dəfə böyük faciə ilə üzləşib. İlk dəfə 1918-ci ildə İrəvanda erməni silahlı dəstələri tərəfindən yandırılıb. İkinci dəfə isə 1955-ci ilin martında faciəli hadisə baş verib: həmin vaxt məsciddə azərbaycanlı din xadimi Mahmud Aruzoğlu həyat yoldaşı və 22 nəfər türk alimi ilə birlikdə ibadət edərkən ermənilər tərəfindən diri-diri yandırılıb. Bu hadisə azərbaycanlılara qarşı törədilən dini və milli soyqırımı aktlarının acı nümunələrindən biridir.

1995-2006-cı illərdə məscid İranın tikinti şirkətlərinin köməyi ilə bərpa edilib. Lakin bu bərpadan sonra abidə Ermənistan hökumətinin siyasəti nəticəsində "İran mədəniyyət mərkəzi" kimi təqdim olunmağa başlanıb. Bu, həm Azərbaycan tarixinə qarşı saxtakarlıq, həm də mədəni irsin mənimsənilməsi cəhdidir.

Ümumiyyətlə, Azərbaycanın qədim şəhərlərindən biri olan İrəvan əsrlər boyu yalnız qala və sarayları ilə deyil, həm də çoxsaylı məscidləri ilə tanınıb. XIX əsrə qədər bu şəhərin simasını müəyyən edən əsas memarlıq elementlərindən biri məhz möhtəşəm məscidlər idi. Bu tikililər həm dini, həm də ictimai-mədəni mərkəz funksiyasını daşıyır, şəhərin memarlıq ruhunu formalaşdırırdı.



İrəvan məscidləri barədə ən qiymətli məlumatlardan birini məşhur fransız səyyahı və etnoqrafı İvan Şopen (1798-1870) verib. XIX əsrin 20-ci illərində Qafqaz canişinliyinin tapşırığı ilə bölgəni araşdıran Şopen yazılarında İrəvan və Naxçıvan əhalisinin tarixi, etnik tərkibi, dili, folkloru, ədəbiyyatı və incəsənəti haqqında ətraflı məlumat toplayıb. Onun 1832-ci ilə aid qeydlərində yalnız İrəvan şəhərində 12 məscid qeydə alınır.

Şopenin göstərdiyi məscidlər arasında "Came" məscidi, "Şah Abbas" məscidi, "Zal xan" məscidi, "Novruzəli bəy" məscidi, "Sərtib xan" məscidi, "Hüseynəli xan" məscidi, "Hacı İmamverdi bəy" məscidi, "Hacı Cəfər bəy" məscidi və digərləri xüsusi əhəmiyyət kəsb edirdi. Bu fakt bir daha sübut edir ki, İrəvan tarixi boyunca müsəlman şəhəri olub və burada Azərbaycan memarlığı üstünlük təşkil edib.

Tarixi sənədlər göstərir ki, 1912-ci ilə kimi indiki Ermənistan ərazisində - İrəvan qəzasında 42, Eçmiedzin qəzasında 33, Zəngəzur qəzasında isə 35 məscid fəaliyyət göstərib. 1915-ci ildə bu say daha da artmış və İrəvan-Zəngəzur bölgəsində ümumilikdə 391 məscid qeydə alınmışdı (382-si şiə, 9-u sünni məscidi). Təəssüf ki, 1918-ci ildən etibarən erməni millətçilərinin həyata keçirdiyi etnik təmizləmə və mədəni soyqırımı siyasəti nəticəsində bu məscidlərin böyük əksəriyyəti dağıdılıb, yandırılıb və tamamilə məhv edilib.

**İrəvanın məşhur məscidləri aşağıdakılar olub:**

"Sərdar" məscidi - İrəvan məscidlərinin ən qədimi sayılan bu məscid XVI əsrə aiddir. Tarixi mənbələrə görə, bu ibadətgah Şah İsmayıl Xətainin göstərişi ilə onun vəziri Rəvanqulu xan tərəfindən inşa edilib. 1589-cu ildə Osmanlı türkləri məscidi bərpa ediblər. Sərdar sarayının yaxınlığında yerləşdiyi üçün məscid "Sərdar" məscidi adlanırdı. 1918-ci ildə ermənilər bu məscidə toplaqları müsəlmanları diri-diri yandıraraq abidəni insanlarla birlikdə külə çeviriblər.

"Şah Abbas" məscidi - 1604-cü ildə 1-ci Şah Abbas İrəvan qalasını Osmanlılardan geri aldıqdan sonra 1606-cı ildə şəhərin ən möhtəşəm məscidlərindən biri olan "Şah Abbas" məscidini inşa etdirdi. Memarı məşhur Şeyx Bahəddin idi. Məscid kompleksinə mədrəsə, kitabxana, mehmanxana və ictimai yeməkxana daxil idi. Burada kasıblara gündə üç dəfə yemək paylanır, ictimai toplantılar keçirilirdi. XX əsrin əvvəllərində yarıuçuq vəziyyətdə olsa da, 1918-ci ildən sonra tamamilə məhv edilib.



"Dəmirbulaq" məscidi - İrəvanın azərbaycanlılar yaşayan Dəmirbulaq məhəlləsində XVII-XVIII əsrlərə aid bu məscid ibadət yeri və dini mərkəz olub. Memarı Hacı Müzəffər Ağa idi. Xalq arasında bəzən "Günlüklü məscid" də adlandırılan bu tikili 1988-ci ilə qədər fəaliyyət göstərirdi. Lakin həmin ilin fevralında erməni millətçiləri tərəfindən hücuma məruz qaldı, dağıdıldı və yandırıldı. Bu, İrəvan azərbaycanlılarının sonuncu dini ocağının məhv edilməsi demək idi.

"Rəcəb paşa" məscidi - 1725-ci ildə Rəcəb paşa tərəfindən inşa edilən bu məscid İrəvan qalasında yerləşirdi. 1827-ci ildə Rusiya qoşunları İrəvanı işğal etdikdən sonra məscid dağıdıldı və onun yerində pravoslav kilsəsi tikildi. Bu, İrəvan məscidlərinin kilsəyə çevrilməsinin ilk nümunələrindən idi.

"Abbas Mirzə xan" məscidi - XVIII əsrdə Qacar şahzadəsi Abbas Mirzə tərəfindən inşa edilən bu məscid də 1827-ci ildə rus işğalı zamanı dağıdıldı. Uzun müddət qalıqları mövcud olsa da, 2008-ci ildə Ermənistan hakimiyyəti abidəni tamamilə sökərək yer üzündən sildi.

"Şükürbəyli" məscidi - İrəvanın daha bir məşhur məscidi. 1827-ci ildə rus qoşunları tərəfindən daxili dəyişdirildi və "Svyatoy Boqoradiç" adı altında kilsəyə çevrildi. Hazırda da bu məkan rus pravoslav kilsəsi kimi fəaliyyət göstərir.

"Zal xan" məscidi - XIX əsrdə tikilib. II Dünya müharibəsindən sonra orijinal memarlıq üslubu tamamilə dəyişdirilərək sərgi salonuna çevrilib. Beləcə, abidə dini funksiyasını tamamilə itirib.

Bu tarixi faktlar bir daha göstərir ki, İrəvan əsrlər boyu Azərbaycan şəhəri olub və burada onlarla məscid fəaliyyət göstərib. Lakin XX əsrdə həyata keçirilən məqsədyönlü etnik təmizləmə siyasəti nəticəsində bu dini abidələrin əksəriyyəti dağıdılıb, bir qismi kilsəyə və ya muzeyə çevrilib, çox az qismi isə izsiz məhv edilib. Adıçəkilən məscidlər yalnız dini tikililər deyildi. Onlar həm də Azərbaycan xalqının bu torpaqlardakı varlığının, dövlətçilik ənənələrinin, memarlıq məktəbinin və mədəniyyətinin canlı şahidləri idi.

Azərbaycan memarlıq irsinin İrəvanda və ümumilikdə Ermənistan ərazisində məhv edilməsi faktları çoxsaylı sənədlərlə sübut edilsə də, beynəlxalq təşkilatlar bu məsələyə lazımınca diqqət yetirmir. UNESCO uzun illərdir ki, bu barədə susur. Halbuki Azərbaycan abidələrinin dağıdılması təkcə milli deyil, həm də ümumbəşəri mədəni irsə qarşı cinayət hesab edilməlidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Ölkədə rüşvətxorluğa qarşı yeni mübarizə

## Ekspert deyir ki, Azərbaycanın bu standartı dünyada tanınmır; "İAF-a üzvlük vacibdir"

**Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) "Rüşvətxorluğa qarşı idarəetmə sistemləri. Tələblər və istifadəyə dair rəhbəredici göstərişlər" dövlət standartının dövri yoxlamasını aparıb. İnstitut xəbər verir ki, "Rüşvətxorluğa qarşı idarəetmə sistemləri. Tələblər və istifadəyə dair rəhbəredici göstərişlər" dövlət standartı qəbul edilib. Bu standart rüşvətxorluq risklərinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və idarə olunması üçün vahid metodologiya təqdim edir, şəffaflığın təmin edilməsi və etik davranışların təşviqinə şərait yaradır. Sözügedən yeni dövlət standartı "Uyğunluğun qiymətləndirilməsi" standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK 08) konsensus əsasında qəbul edilərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.**



"Rüşvətxorluğa qarşı idarəetmə sistemləri. Tələblər və istifadəyə dair rəhbəredici göstərişlər" dövlət standartı "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın müvafiq tələblərinin icrası məqsədilə qəbul edilib.

Daha dəqiq desək, institut rüşvətxorluğa qarşı idarəetmə sistemlərinə dair yeni dövlət standartının dövri yoxlamasını aparıb və bu standart artıq qəbul olunub. Yeni standart rüşvətxorluqla mübarizədə vahid yanaşma təqdim edir. Burada əsas məqsəd təşkilatların rüşvətxorluq risklərini necə müəyyən etməli, qiymətləndirməli və idarə etməli olduğunu izah etməkdir. Standartın tətbiqi nəticəsində təşkilatlarda şəffaflıq təmin olunur, etik davranışlar təşviq edilir və rüşvətin qarşısının alınması üçün sistemli mexanizmlər formalaşdırılır. Bu sənəd dövlət və özəl qurumlar üçün bir rəhbərlik kimi istifadə oluna bilər. Yəni bu addım dövlətin həmin fəaliyyət planında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi məqsədi daşıyır. Yeni dövlət standartı ilə təşkilatlara rüşvətxorluğa qarşı daha sistemli və səmərəli mübarizə aparmaq üçün dəstək verilir. Bu isə bütövlükdə idarəetmədə şəffaflığın və etibarlılığın artırılmasına xidmət edir.

**Beynəlxalq idarəetmə sistemləri üzrə mütəxəssis Asif İbrahimov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Azərbaycan Standartlaşma İnstitutunda dövlət standartı qəbul edilib. Əslində dövlət standartı qəbul edilmir. Bununla bağlı 2016-cı ildən Beynəlxalq Standartlaşma Təşkilatı (ISO) tərəfindən mövcud olan İSO 37001-2.2016 standartı var. Bu standart 2016-cı ildə dərc olunub, yəni dərc olunma ili əsas götürülür. Bizim institut həmin standartı götürüb tərcümə edib və dövlət standartı olaraq qəbul edib, İSO 37001-2025 olaraq qəbul ediblər. 2017-18-ci illərdən bəri bu standartın tətbiqi həyata keçirilib, bir çox dövlət qurumları bunu tətbiq edir. DOST Agentliyi, Dövlət Tibbi Sosial Ekspertiza Agentliyi, Məşğulluq Agentliyi, Xəzər Dəniz Gəmiçiliyi və digər qurumlarda bu standartın tətbiqi həyata keçirilib. Artıq bu standartın dəfələrlə resertifikatlaşdırma prosesi aparılıb. Yəni dəyişən heç bir şey yoxdur. Həmin standart dövlət standartı olaraq qəbul edilib. Ümumilikdə Azərbaycanda İSO 37001-2025 standartına əsasən verilən sertifikatlar dünyada keçərli olmayacaq. Daha yaxşı olardı ki, Azərbaycan hökuməti bununla bağlı göstəriş versin. Hər hansı standartların tətbiqi və tənzimləməsini həyata keçirən qurum İAF-a üzv olsun və Azərbaycan tərəfindən verilən bütün beynəlxalq sertifikatlar dünyanın bütün digər akkreditasiya orqanları tərəfindən tanınsın. Yəni AZAK - Azərbaycan Akkreditasiya Mərkəzi bütün dünyada tanınsın".

**Ekspert qeyd edib ki, əslində standartın yeni versiyası çıxıb - İSO 2025. Beynəlxalq Standartlaşma Təşkilatı tərəfindən yeniliklər var:** "Bizdə isə köhnə versiya tərcümə edilərək 2025 versiyası adı ilə dövlət standartı kimi qəbul edilib. Əgər Azərbaycan İAF-a üzv olsa, Azərbaycan Akkreditasiya Mərkəzinin verdiyi sertifikatlar bütün İAF üzvü olan digər ölkələrdə tanınmalı olacaq. 2016-cı ildə Standartlaşma və Meteorologiya Patent üzrə Dövlət Komitəsi var idi, özləri üzv olmamışdılar. Bunun məqsədi isə bilavasitə üzv olmamaq və yoxlayıcı qurumların hamısını AZAK-a üzv etsinlər, əlavə vəsait alsınlar. Lakin bu işlər belə olmur. İAF-a üzv olmaq lazım idi. Azərbaycan AZAK tərəfindən verilən bütün sertifikatlar İAF üzvü olan digər ölkələrdə tanınmalı idi. Bu, bilə-bilə atılmış addım idi və indi bu səhvdən dönmək lazımdır.

Azərbaycan Uqanda və ya Cibuti deyil. Ölkəmiz inkişaf etməkdə olan, yetərincə istehsal mədəniyyəti olan, ixtisaslaşmış sənaye dövlətidir. Buna görə də Azərbaycan Akkreditasiya Mərkəzi İAF-a üzv olmalıdır ki, AZAK loqolu sertifikatlar dünyanın bütün İAF üzvü ölkələrində tanınsın".

Qeyd edilməlidir ki, "Rüşvətxorluğa qarşı idarəetmə sistemləri" standartı artıq ASAN xidmət modelində də tətbiq edilir. ASAN xidmət 2012-ci ildən Azərbaycanda fəaliyyət göstərən vətəndaşlara dövlət xidmətlərini bir pəncərə prinsipi ilə təqdim edən sistemdir. Onun əsas məqsədi insanlara sürətli, şəffaf və əlçatan xidmətlər göstərmək, eyni zamanda rüşvətxorluq və korrupsiya hallarını minimuma endirməkdir. Əvvəllər bir çox dövlət xidmətində vətəndaşlar birbaşa məmurla təmasda olurdu ki, bu da qeyri-rəsmi ödənişlərə və şəxsi tanışlıqlara geniş yol açırdı. ASAN xidmət bu prosesi sistemləşdirərək insan amilini minimuma endirib və bütün xidmətləri rəsmiləşdirilmiş qaydalar əsasında təqdim etməyə başlayıb. Xidmətlərin hansı sənədlərlə, neçə günə və nə qədər ödənişlə göstəriləcəyi əvvəlcədən məlumdur və bu, hər kəs üçün eyni şəkildə tətbiq olunur.

Xidmət mərkəzlərində növbələr elektron şəkildə idarə edilir. Bu isə vətəndaşların "tanış tapıb" növbədənkənar xidmət almasının qarşısını alır. Eyni zamanda bir çox xidmətlər onlayn şəkildə də təqdim olunur ki, bu da vətəndaşların əlavə vaxt və enerji sərf etmədən xidmətlərdən faydalanmasına şərait yaradır. ASAN xidmət əməkdaşları xüsusi seçilmə və təlim prosesindən keçirilir. Onların rotasiya ilə işləməsi və daimi nəzarətdə saxlanılması şəxsi əlaqələrin və potensial sui-istifadə hallarının qarşısını alır. Hər bir vətəndaş xidmətin sonunda məmnunluğunu qiymətləndirə bilir və bu rəylər toplanaraq təhlil edilir.

Bu model həm vətəndaşların dövlətə olan inamını artırır, həm də xidmət keyfiyyətini yüksəldir. ASAN xidmət BMT tərəfindən də yüksək qiymətləndirilib və bir neçə beynəlxalq mükafata layiq görülüb. Vətəndaş məmnunluğu səviyyəsi isə 98-99 faiz civarındadır. ASAN xidmətin uğurlu təcrübəsi indi daha geniş şəkildə tətbiq olunmağa başlanır. "Rüşvətxorluğa qarşı idarəetmə sistemləri" adlı yeni dövlət standartının qəbul edilməsi də məhz bu modelin daha geniş miqyasda tətbiqinə istiqamətlənib. Beləliklə, "Rüşvətxorluğa qarşı idarəetmə sistemləri" dövlət standartı, ASAN xidmət modelində olduğu kimi, şəffaf, etibarlı və hesabatlı idarəetməni digər dövlət və özəl qurumlarda da genişləndirmək məqsədini daşıyır. Bu isə ölkədə korrupsiyaya qarşı mübarizənin sistemli və effektiv şəkildə aparılması üçün mühüm addımdır. Nəticə etibarilə, ASAN xidmət yalnız bir mərkəzləşmiş dövlət xidmətləri platforması deyil, həm də şəffaf idarəetmənin mümkünlüyünü və rüşvətxorluğun qarşısının alınmasında effektiv mexanizmlərin qurulmasının nümunəsini ortaya qoyur.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



# Universitet yataqxanalarında qiymətlər

**Yeni tədris ilinin başlanmasına sayılı günlər qalıb. Belə vəziyyətdə kirayə mənzillərin qiymətində müşahidə olunan artım maddi imkanı məhdud olan tələbələri daha da çətin vəziyyətə salır. Universitet yataqxanalarının sayının azlığı və mövcud şəraitin yetərsizliyi isə bu problemi daha da aktuallaşdırır: yaşayış yeri ilə necə təmin olunmalı?**

Modern.az saytı bir sıra ali təhsil müəssisələri arasında sorğu keçirərək yataqxanalarla bağlı mövcud vəziyyəti araşdırıb.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**ndən bildirilib ki, ali təhsil müəssisəsinin Bakı şəhərində 5 tələbə yataqxanası mövcuddur. Lakin bu yataqxanalardan 4-də 1603 nəfərdən ibarət 443 məcburi köçkün ailəsi məskunlaşıb: "ADPU-nun 5 nömrəli yataqxanası isə universitetdə təhsil alan qız tələbələrə xidmət göstərir. Bu yataqxanada 200 nəfərədək tələbə yerləşə bilər. Yataqxanada aylıq ödəniş bir tələbə üçün 85 AZN təşkil edir. Burada tələbələr bütün kommunal, internet xidmətləri, istirahət otaqları və s. ilə təmin olunurlar. Bütün otaqlar tam təmirlidir. Yataqxanaya əsasən sosial həssas qrupdan olan yerli və əcnəbi qız tələbələr qəbul olunur".

**Azərbaycan Tibb Universitetinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova sorğumuza cavab olaraq bildirib ki, universitetin bir neçə yataqxanası fəaliyyət göstərir**: "5 və 6 saylı yataqxanalarda otaqlar adətən 3 nəfər üçün nəzərdə tutulub. 1 və 2 saylı yataqxanalarda isə otaqların əksəriyyəti 3 və 4 nəfərlikdir, 2 nəfərlik otaqlar isə çox azdır.

Yataqxana qiymətləri yerləşdirmə şəraitinə və otaqdakı tələbə sayına əsasən dəyişir. Azərbaycanlı tələbələr üçün aylıq ödəniş 60-80 AZN, əcnəbi tələbələr isə 120 AZN təşkil edir".

**Bakı Mühəndislik Universitetindən verilən məlumata görə, oğlan və qızlar üçün 342 nəfərlik iki böyük yataqxana fəaliyyət göstərir:** "Yataqxanadakı 77 otağın hər biri 4 nəfərlikdir. Universitetin tələbə yataqxanaları ən müasir tələblərə cavab verir. Bütün mərtəbələrdə istirahət guşəsi və dərs çalışma otaqları var.

Kompleksin ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün hərtərəfli imkan yaradılıb.

Yataqxanalarda daha çox yerli tələbələr yerləşib. Əcnəbi tələbələrdən də yataqxananın imkanlarından istifadə edənlər var. Qiyməti ayda 70 manat təşkil edir".

**Azərbaycan Dillər Universitetindən bildirilib ki, ali təhsil müəssisəsinin 2 saylı yataqxanası qızlar üçün nəzərdə tutulub və 205 nəfərlikdir. Xidmət haqqı 30 manat təşkil edir:** "Yataqxanada azərbaycanlı tələbələr üstünlük təşkil edir. Oğlanlar üçün nəzərdə tutulan 1 saylı yataqxana isə hazırda məcburi köçkünlərin yerləşdirilməsi səbəbindən tələbələr üçün fəaliyyət göstərmir. Lakin məcburi köçkünlər doğma yurda qayıtdıqdan sonra yataqxana təmir edilərək oğlan tələbələrin istifadəsinə veriləcək".

# YENİ MÜSAVAT

Son səhifə

N 146 (8756) 20 avqust 2025

Avqust


## Bunları bilirsinizmi?

* Bir cüt milçəyin yalnız aprel-may aylarında buraxdıqları yumurtaların hamısından ağcaqanad çıxsaydı, dünyanı 14 metr qalınlığında milçək təbəqəsi örtərdi.
* Dünya əhalisinin 50%-nin telefonla heç danışmadığını bilirdinizmi?
* Əgər siz 1 saat müddətində qulaqcıqla nəyəsə qulaq assanız, bu zaman qulağınızda bakteriayaların sayı 70% artmış olacaq.
* Yataqdan düşərək ölmə ehtimalının iki milyonda bir olduğunu bilirdiniz?
* Bir insandakı ümumi damar uzunluğu 150 min kilometrdir. Başqa cür desək, bu dünya ilə Günəş arasındakı məsafənin 150 milyon km-nə bərabərdir.
* Kişiləri ildırım vurması ehtimalı qadınlara görə 6 qat daha çoxdur.
* Bir okeanın ən dərin yerində, dəmir bir topun dibə çökməsi bir saatdan çox vaxt alır.
* Bu günə qədər yaşamış ən ağır adam 635 kiloya sahib olan vaşingtonlu Jon Brover Minnochdur.
* Məşhur cizgi filmi Təməl Rəis 1919-ci ildə Elzie Crisler Segar tərəfindən çəkilib.
* Barmaq izləri kimi dil izləri də hər insan üçün unikal və təkrarolunmazdır.
* ABŞ-da yaşları 20 ilə 29 arasında olan zənci kişilərin üçdə biri ya həbsxanada, ya da müvəqqəti istintaq təcridxanasındadır.
* Dünyanın ən hündür dalğası 1971-ci ildə Yaponiyanın İşigaki adasında qeydə alınıb. Onun hündürlüyünün nə az, nə çox 85 metr yüksəkliyinə çatdığı bildirilir.

# Almaniyada qadın yağış suyunu oğurlamaqda ittiham olundu



**Almaniyanın Şpayxingen şəhərində 51 yaşlı yerli sakin qonşusundan 40 litr yağış suyu oğurlamaqda ittiham olunur. Bu barədə "Die Welt" qəzeti Konstans polisinə istinadən məlumat yayıb. Hadisə qadının iki dəfə 38 yaşlı qonşusunun yağış çəlləyinə yaxınlaşması zamanı baş verib.**

Hüquq-mühafizə orqanlarının rəsmi açıqlamasına görə, səhər saat 4 radələrində şübhəli şəxs iki suvarma qabı ilə küçənin o tayına keçib, onları yağış suyu ilə doldurub və hətta yanından avtomobil keçərkən zibil qabının arxasında gizlənib. Polisin hesablamasına görə, oğurlanmış suyun ümumi dəyəri cəmi 15 avro senti təşkil edir.

Məbləğin kiçik olmasına baxmayaraq, hüquq-mühafizə orqanları bildiriblər ki, bu hal həqiqətən də oğurluq kimi qiymətləndirilir. Çünki çəlləyə toplanan su onun sahibinin mülkiyyəti hesab olunur.

## Ayda 1-2 dəfədən artıq yemək olmaz! - Həkim xəbərdarlıq etdi



**Dondurmanın qaraciyərə zərərli təsiri barədə xəbərdarlıq edilib.**

Milli.Az xəbər verir ki, Qazeta.ru-ya açıqlama verən "Sağlam qidalanma" Elmi Mərkəzinin icraçı direktoru, həkim-dietoloq, hepatoloq Nuriya Dianova bildirib ki, qaraciyər yağ və karbohidrat mübadiləsinə cavabdehdir və onların artıq miqdarı orqanın yüklənməsinə səbəb olur.

Onun sözlərinə görə, dondurmadan imtina etmək daha yaxşıdır, amma alternativ variant mövcuddur. Belə ki, süd yağı əvəzediciləri ilə hazırlanan dondurma xolesterinin və zərərli yağ turşularının miqdarını azaldır, faydalı yağ turşularını isə artırır. Bu cür məhsullarda sağlamlığa ziyanlı transizomerlər olmur.

Dianova qeyd edib ki, plombir və eskimo əvəzinə meyvəli buz da seçilə bilər, lakin belə məhsullarda şəkərin miqdarına diqqət yetirmək vacibdir. O əlavə edib ki, təbii dondurma süd, qaymaq və kərə yağından hazırlanır və tərkibində zərərli yağlar olur. Onu tez-tez yemək qaraciyər xəstəliklərinin riskini artırır. Mütəxəssislərin tövsiyəsinə görə, belə dondurmanı ayda bir-iki dəfədən artıq yemək olmaz.

# Elektrik şarj stansiyaları havanı çirkləndirir



**Elektrik və hibrid avtomobilləri şarj etmək üçün nəzərdə tutulmuş stansiyaların ərazisində havanın adi yanacaqdoldurma məntəqələrinə nisbətən daha çirkli olduğu müəyyən edilib.**

Oxu.Az xəbər verir ki, bu barədə "Automotive News" Los-Ancelesdəki Kaliforniya Universitetinin tədqiqatçılarına istinadən məlumat yayıb. Tədqiqatçılar Kaliforniyada elektromobillər üçün 50 sürətli enerji doldurma stansiyasında havanın tərkibini təhlil ediblər. Nəticələr göstərib ki, havada çirkli mikrohissəciklərin konsentrasiyası hər kubmetr üçün 15,2 mikroqram təşkil edib ki, bu da ÜST-nin hava keyfiyyəti standartlarından daha yüksəkdir.

Elm adamlarının fikrincə, problemi həll etmək mümkündür, lakin bunun üçün şarj şəbəkəsi operatorlarının səyləri tələb olunur.

## Hindistanda üç yaşlı qız bəbirin hücumundan sağ çıxa bilib

**Hindistanda üç yaşlı qız möcüzə nəticəsində bəbirin hücumundan sağ çıxa bilib. Oxu.Az xəbər verir ki, bu barədə "New Indian Express" nəşri məlumat yayıb. Hadisə Andhra-Pradeş ştatının Çinnarutla qəbilə kəndində gecə saatlarında baş verib. Kiçik Anyamma daxmanın yanında çöldə yatarkən yırtıcı ona yaxınlaşıb, tutaraq kolların içinə sürükləyib. Lakin yuxudan oyanan uşağın atası baş verənləri görüb. O, qışqıraraq bəbiri qovub və bu zaman heyvan qorxaraq ovunu yerə atıb. Beləcə ata qızının həyatını xilas edə bilib.**

Valideynlər dərhal kömək çağırıblar. Qızcığaz əvvəlcə Sundipentadakı dövlət xəstəxanasına aparılıb, daha sonra müalicəsinin davamı üçün Dornalaya köçürülüb. Həkimlərin sözlərinə görə, uşağın vəziyyəti stabildir.

Bununla yanaşı, kənd sakinləri meşə idarəsinin fəaliyyətsizliyindən narazılıq ediblər. Onlar etiraz olaraq yolu bağlayıblar. Yerli hakimiyyət orqanları isə bölgədə vəhşi heyvanların insanlara hücumlarının artdığını etiraf edərək, təhlükəsizlik tədbirlərinin gücləndiriləcəyinə söz veriblər.

## TikTok-da 14 milyon baxış: itin insanabənzər üz cizgiləri diqqət çəkdi



**İnsanabənzər üz cizgilərinə malik "Maks" adlı qıvrımsaç it sosial şəbəkələrdə gündəm olub. İt öz görünüşü ilə TikTok istifadəçilərini həm valeh edib, həm də bir qədər qorxudub. Oxu.Az xəbər verir ki, bu barədə "Newsweek" nəşri məlumat yayıb. Məlumata görə, Maks Alabama ştatındakı sığınacaqdan olan beş yaşlı itdir və damarlarında təxminən 10 müxtəlif cinsin qanı axır. Onun fərqli xüsusiyyətləri - geniş açılmış gözləri, büzülmüş dodaqları və çatılmış qaşları istifadəçilərin onu həmkarları, məşhurlar və hətta sehrlənmiş nağıl personajları ilə müqayisə etməsinə səbəb olub.**

Adının açıqlanmasını istəməyən Maksın sahibi "Newsweek"ə açıqlamasında bildirib: "Onun bu qədər küskün görünməsinin əsl səbəbi depressiyaya düşməsi deyil. Mənim övladlarım bütün günü onunla oynayırdılar və şam yeməyində "çipotle" yedik, o isə əlavə yemək istəyirdi". Qadın qeyd edib ki, melanxolik üz ifadəsinə baxmayaraq, Maks xoşbəxt itdir.

Maksın öz TikTok hesabı var. Sahibi onu doğuşdan sonrakı çətinliklərlə mübarizə apardığı zaman emosional dəstək üçün alıb: "Düşündüm ki, Maksın videolarını ən azı bir neçə nəfərin gülümsəməsi üçün paylaşsam, bu, mənim də gülümsəməyimə kömək edəcək".

Maksın son videosu 14,3 milyondan çox baxış toplayıb və TikTok istifadəçiləri onun heyrətamiz dərəcədə insana bənzədiyini qeyd ediblər. "Maks mənim iş yoldaşım Derrikə bənzəyir", - deyə bir istifadəçi yazıb. Başqa bir şərhçi isə onu aktyorla müqayisə edib: "Sizin itiniz Uill Ferrelə bənzəyir".

Bir çox istifadəçi isə qarışıq hisslərini ifadə edib: "O, çox şirindir, amma eyni zamanda ondan bir az qorxuram", - deyə biri yazıb. Sahibi bu reaksiyadan məmnun qalıb.

"Günlərdir xoşbəxtlikdən ağlayıram, inana bilmirəm ki, balaca Maksımız bu qədər çox insan tərəfindən sevildi. Ən təsirlisi odur ki, bir çox insan Maksın çətin anlarında onlara sevinc bəxş etdiyini yazıb. İstədiyim tək şey bu idi", - deyə o əlavə edib.

## Dişləri xəstəliklərdən qoruyan unikal saqqız hazırlandı



**Rusiyanın Seçenov Universitetinin mütəxəssisləri ağız boşluğu üçün faydalı maddələrdən ibarət unikal saqqız hazırlayıblar. Oxu.Az xəbər verir ki, bu barədə universitetin Mətbuat Xidməti məlumat yayıb. Yeni məhsul dişlərdə kariyes və digər bir sıra xəstəliklərin qarşısını almaq üçün nəzərdə tutulub. Saqqızın tərkibində probiotiklər və prebiotiklər var. Məhsul yalnız dişləri xəstəliklərdən qorumur, həm də ağız boşluğunda mikrobların balansını tarazlaşdırır.**

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.